Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

15 MART 2019-cu il

№ 50 (3948)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANDAN FORMAT UĞURSUZLUĞUNUN ARDINCA YENİ OYUN TEZİSİ - QONDARMA «DQR» MƏNƏ SƏLAHİYYƏT VERMƏDİ...

səh. 6

Format tərsliyinə görə yeni "aprel müharibəsi" qorxusu Ermənistanı bürüyür... səh. 9

ATƏT sədrinin qondarma "DQR" "nazir"i və saxta qaçqın rəhbərlə görüşü - erməni mediasının sədrlə bağlı yaydığı iki fakt aydınlaşma tələb edir... səh. 6

"OPEK+"-un Bakı iclası ərəfəsində neft qiymətlərini sıçradan hadisə - ABŞ və İsrail qaçaq neft daşıyan İran gəmilərinin ovuna başlayır... səh. 11

MDB-də istehlakın bahalaşmasına görə Ermənistan "lider" oldu... səh. 8

Bakıda "leş ətinin" yeni ünvanı, iş kütləvi zəhərlənməyə çıxdı, AQTA hələ susur... səh. 12

Azərbaycanda Kök-hüceyrə Mərkəzi - Əhliman Əmiraslanovun təklifinin mahiyyəti... səh. 12

"Bir də görürsən beş-üç şou müğənnisi müxtəlif verilişlərin canlı yayımında pul dilənir" səh. 14



Proqnozlaşdırılan müstəqil, milli maraqlara, qarşılıqlı əməkdaşlığa, regional sabitliyə əsaslanan...

Dünyanın yeni xarici siyasət konsepsiyasının ilk müddəaları Bakıda səsləndirildi...

səh. 3-4

## Prezident 500-dən çox dünya siyasətçisi ilə Azərbaycanın xarici siyasətinin əsl elementlərini paylaşdı...





Rusiyada Azərbaycanın maraqları ilə uzlaşmayan üç hadisənin dalbadal baş verməsi - təsadüf, ya... səh. 7

Məşhur Zatulin Paşinyana qarşı əsas əksinqilabçı fiqur rolunda... səh. 8

Vidadi İsgəndərlini Robert Köçəryanın xalası oğlu ilə bağlayan nədir? səh. 10

səh. 5 Bakıda keçirilmiş 6 əvvəlki qlobal forumun dünya təhlükəsizlik tarixinə töhfələri...



səh. 7 Daha bir Gürcüstan Prezidenti İrəvanda saxta genosid abidəsinə ikiqat əyildi...



səh. 10 Səfər Əbiyev-Qurban Məmmədov-Fuad Abbasov üçlüyündə suallar doğuran mətləb...



səh. 11 Dünya "Boeing"dən imtina edir, Azərbaycanın 10 təyyarəyə müqaviləsi var, ekspert gözləməyi tövsiyə edir...



səh. 14 Bakıda "fast-food"lara nəzarət olunurmu - kütləvi zəhərlənmə təkrarlana bilər...



## "Azərbaycan hesab edir ki, Minsk Qrupu həmsədrlərinin son bəyanatı məhz Ermənistana ünvanlanıb"

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatında əks olunan fikirlərin bir qismi Azərbaycanın da mövqeyini əks etdirir. Trend-in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.**

**H.Hacıyev qeyd edib: "Azərbaycan hesab edir ki, bu bəyanat məhz Ermənistana ünvanlanmış bəyanatdır. Həmin bəyanatda bir daha aydın ifadə olunur ki, danışıqlar prosesi ilə bağlı hər hansı şərtin irəli sürülməsi və yaxud danışıqların formatının dəyişdirilməsi kimi məqamlar və cəhdlər qəbuledilməzdir, danışıqlar olduğu formatda davam etdirilməlidir".**



Şöbə müdirinin sözlərinə görə, danışıqlar olduğu formatda davam etdirilməlidir: "Həmçinin danışıqlar prosesi getdiyi bir halda prosesin nəticələri barədə hər hansı bir aqressiv ritorika əsasında fikirlərin söylənilməsi də qəbuledilən yanaşma deyil.

Bununla bərabər, biz burada münaqişənin mərhələli həlli ilə əlaqədar olan prinsipləri də qeyd etmiş olduq ki, burada da əsas məqamlardan biri Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ətrafındakı ərazilərin işğaldan azad edilməsi, məcburi köçkünlərin ora qayıtması, təhlükəsizliyin təmin edilməsi kimi tədbirlərdir ki, bunların da fundamental əsasını məhz Helsinki Yekun Aktı təşkil edir və Helsinki Yekun Aktında da xalqların öz müqəddaratını təyinetmə və ərazi bütövlüyü məsələlərinin bir-birinə münasibətdə hansı əsaslarla həyata keçirilməsi də aydın ifadə olunub.

Belə ki, xalqların öz müqəddaratını təyinetmə prinsipi heç bir halda dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməlidir". H.Hacıyev vurğulayıb ki, Dağlıq Qarabağ bölgəsinin statusuna gəldikdə isə Azərbaycan hər zaman ərazi bütövlüyü çərçivəsində bu məsələni müzakirə etməyə hazırdır və burada yenə də Helsinki Yekun Aktının əsas prinsiplərinə istinad olunmalıdır.

# Prezidentlərin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədləri imzalandı



**Martın 14-də Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edən Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.**

Əvvəlcə təkbətək görüş keçirilib, sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib.

Sonra prezidentlər İlham Əliyevin və Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədləri imzalanıb. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə Əfqanıstanın Dəmir Yolları İdarəsi "ARA" arasında əməkdaşlıq haqqında Niyyət Memorandumu"nu "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və Əfqanıstanın maliyyə naziri vəzifəsini icra edən, Prezidentin infrastruktur və texnologiyalar üzrə müşaviri Mohammad Hamayun Qayumi imzalayıb. "Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Əfqanıstanın maliyyə naziri vəzifəsini icra edən, Prezidentin infrastruktur və texnologiyalar üzrə müşaviri Mohammad Hamayun Qayumi imzalayıb.

"Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev və Əfqanıstanın informasiya və mədəniyyət nazirinin vəzifəsini icra edən Hasina Safi imzalayıb.

# Azərbaycan Baş Prokurorluğu ilə Belarusun İstintaq Komitəsi arasında əməkdaşlıq Sazişi imzalandı

**Azərbaycan Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Belarus İstintaq Komitəsinin sədri İvan Noskeviçin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.**

Qonaqları Baş prokuror Zakir Qaralov qəbul edib, iki ölkə orqanlarının əlaqələrinin inkişaf yolundan və Əliyev - Lukaşenko dostluğunun bu istiqamətdə verdiyi faydalardan danışıb.



Belarusun Azərbaycanla hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini deyən İ.Noskeviç iki ölkənin istintaq orqanlarının arasında münasibətlərin dərinləşməsi üçün böyük perspektivlərin olduğunu bildirərək, qarşılıqlı səmərəli əlaqələrin daha da genişlənməsində maraqlı olduğunu vurğulayıb.

Müzakirə nəticəsində iki dövlət orqanı arasında əməkdaşlıq perspektivlərini müəyyənləşdirən "Əməkdaşlıq Haqda Saziş" imzalanıb.

Belarus nümayəndə heyəti daha sonra Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində olmuşdur.

## Azərbaycan iqtisadiyyatında Yaponiyanın iştirakının artırılması müzakirə olunur - missiyanı Mikayıl Cabbarov həyata keçirir

**Yaponiyada rəsmi səfərdə olan vergilər naziri Mikayıl Cabbarov bu ölkənin xarici işlər naziri Taro Kono ilə görüşüb.**

Nazirliyin Media və Kommunikasiya Mərkəzindən "Bakı-Xəbər"ə verilən məlumata görə, T.Kano 2018-ci ilin sentyabrında Bakıya rəsmi səfərini xatırladaraq, ölkəmizdə səmərəli görüşlər keçirdiyini, qarşılıqlı əməkdaşlığın sürətlə inkişaf etdiyini bildirib. Görüşdə ölkələrimiz arasındakı siyasi və iqtisadi əlaqələrin inkişafından məmnunluq ifadə olunub, Azərbaycan-Yaponiya əlaqələrinin bundan sonra daha da möhkəmləndəcəyi vurğulanıb. Səfər çərçivəsində M.Cabbarov Yaponiya Baş nazirinin xüsusi müşaviri Tamohiko Taniquçi, xarici işlər nazirinin müavini Toşiko Abe, habelə Yaponiya maliyyə nazirinin müavini, Azərbaycan-Yaponiya Parlamentlərarası dostluq qrupunun üzvü Keniçiro Ueno ilə də görüşüb. Görüşlərdə ölkələrimiz arasında əməkdaşlığın mövcud vəziyyəti, iqtisadi əlaqələrin genişləndirilməsi və ticarətin həcminin artırılması istiqamətində perspektivlər barədə müzakirələr aparılıb. Görüşlər zamanı Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi və sosial sahədə həyata keçirilən islahatlar barədə məlumat verilib, ölkəmizdə qeyri-neft sahəsində əməkdaşlıq və müştərək müəssisələrin təşkili üçün böyük potensialın olduğu diqqətə çatdırılıb.

Mikayıl Cabbarov Azərbaycan-Yaponiya iqtisadi komitəsinin üzvləri ilə də görüşüb. Görüşdə komitə üzvləri ilə Yaponiya biznes dairələrinin Azərbaycan iqtisadiyyatında iştirakının artırılması imkanları, ölkəmizin sənaye, kənd təsərrüfatı, səhiyyə sahələrinə yeni texnologiyaların idxalı, sərmayə qoyuluşu və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan nümayəndə heyətinin keçirdiyi görüşlərdə ölkəmizin Yaponiyadakı müvəqqəti işlər vəkili Fərid Talıbov da iştirak edib.

Səfərin sonunda Hiroşima və Kioto şəhərlərini ziyarət edən nümayəndə heyəti Sülh Memorial Muzeyi və Sülh parkı ilə tanış olub, II Dünya müharibəsi qurbanlarının xatirəsini yad edərək dərin ehtiramlarını bildiriblər.

*Baki-xeber.com*

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02




# Prezident 500-dən çox dünya siyasətçisi ilə Azərbaycanın xarici siyasətinin əsl elementlərini paylaşdı...

## *Proqnozlaşdırılan müstəqil, milli maraqlara, qarşılıqlı əməkdaşlığa, regional sabitliyə əsaslanan...*

**Martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.**

Martın 16-dək davam edəcək VII Qlobal Bakı Forumunun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən Foruma hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıblar. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Bu mövzular arasında "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Təhlükəsizlik naminə Orta Şərq əməkdaşlığı", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" və digərləri var. Forumun əsas panel iclaslarından biri də gənc liderlərin qlobal siyasətdə roluna həsr olunacaq.

Yeddinci Qlobal Bakı Forumunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açaraq Forumun əhəmiyyətini vurğulayıb. Dünyada sabitliyin olmadığı bir vaxtda planetimizi narahat edən mühüm məsələləri müzakirə etmək imkanı baxımından Bakı Forumunun çox vacib tədbir olduğunu deyən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri sözü Azərbaycan Prezidenti İlham Əliyevə verib. Prezidenti İlham Əliyev Forumda nitq söyləyib.

Dövlətimizin başçısı Forumun dünyada cərəyan edən vacib prosesləri müzakirə etmək üçün mühüm beynəlxalq platformaya çevrildiyini vurğuladı. Forumda dünyanın nəhəng intellektual potensialının cəmləşdiyini deyən Prezident İlham Əliyev bunun tədbirin miqyasını təcəssüm etdirdiyini, Bakı Forumunun beynəlxalq aləmdə misilsiz yeri olduğunu diqqətə çatdırdı.

Azərbaycanın xarici siyasətindən danışan dövlətimizin başçısı bildirdi ki, bu, proqnozlaşdırıla bilən, müstəqil və milli maraqlara əsaslanan, tərəfdaşlıq, qarşılıqlı əməkdaşlıq, regionda sabitliyə yönələn siyasətdir. "Biz ənənəvi tərəfdaşlarla münasibətlərimizi daha da möhkəmləndirmişik, eyni zamanda, yeni dostlar əldə edərək yeni körpülər qurmuşuq", - deyən Prezident İlham Əliyev Azərbaycanın qarşılıqlı hörmətə əsaslanan səmərəli əməkdaşlıq mühiti yarada bildiyini, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və sərməyə qoyuluşu sahələrində əməkdaşlıq qurduğunu diqqətə çatdırdı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və bu münaqişənin nəticələri barədə ətraflı danışan Azərbaycan Prezidenti bir milyondan çox qaçqın və məcburi köçkünün bu gün də bu işğalın nəticələrindən əziyyət çəkdiyini, xalqımıza qarşı etnik təmizləmə aparıldığını, tarixi abidələrimizin dağıldığını xatırlatdı. Dövlətimizin başçısı bildirdi ki, bu işğal beynəlxalq təşkilatların beynəlxalq hüquqa əsaslanan qətnamələrinin pozulması deməkdir və status-kvo qəbuledilməzdir, onun dəyişdirilməsi üçün isə Ermənistan Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmalıdır. "Biz görürük ki, Ermənistan hökuməti bu gün danışıqlar formatını dəyişdirməyə cəhd edir. Bu isə qəbuledilməzdir. Beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupunun həmsədrləri də bunu bəyan edirlər", - deyən Prezident İlham Əliyev bu formatın artıq uzun illərdir mövcud olduğunu bildirdi və bunu dəyişdirmək cəhdini danışıqlar prosesini bloklamaq cəhdi kimi səciyyələndirdi. Vurğuladı ki, danışıqlar yalnız danışıqlar xatirinə aparılmamalıdır. Dövlətimizin başçısı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqdan danışdı və diqqəti ölkəmizin təşəbbüsü ilə yaradılan və artıq 10 ildir ki, mövcud olan "Bakı Prosesi"nin əhəmiyyətinə yönəltdi, "Bakı Prosesi"nin BMT tərəfindən də dəstəklənən proses olduğunu vurğuladı.

Prezident İlham Əliyev Forum iştirakçılarının diqqətini dünyada sabitliyin bərqərar olması üçün mühüm amil olan multikulturalizmin Azərbaycandakı ənənələrinə də yönəltdi, bu ideyanın dünyada təbliğ edildiyini vurğuladı. "Bu gün Azərbaycan nümayiş etdirir ki, yalnız multikulturalizmin təşviqi ilə dünya irəli gedə, gərginlik azala bilər", - deyən dövlətimizin başçısı Azərbaycanın gənc, müstəqil ölkə olmasına baxmayaraq, beynəlxalq təşkilatların dəstəyini qazandığını bildirdi. Ölkəmizin beynəlxalq təhlükəsizliyə töhfəsini qeyd edən Prezident İlham Əliyev nəqliyyat və enerji layihələrimizdən danışdı, həmin layihələrin beynəlxalq əməkdaşlığın mühüm hissəsi olduğunu dedi, bu istiqamətdə reallaşdırılan layihələrin ölkələri daha da yaxınlaşdırdığını, əməkdaşlıq üçün yeni körpülər saldığını, enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini vurğuladı.

Sonra Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Albaniya Prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç, Moldova Prezidenti İqor Dodon, Monteneqro Prezidenti Milo Dukanoviç, Bolqarıstanın Baş naziri Boyko Borisov çıxış ediblər.

Daha sonra İtaliya Prezidenti Sercio Mattarellanın Forum iştirakçılarına məktubunu İtaliyanın ölkəmizdəki səfiri Auqusto Massari oxudu. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Tereza Meyin müraciətini Birləşmiş Krallığın ölkəmizdəki səfiri Karol Krofts çatdırdı. BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Baş katibi Antonio Quterreşin Foruma müraciətini oxudu.

Forumda Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxış etdi.

Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirildi.

Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə və Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennediyə Mərkəzin Qəyyumlar Şurasının qərarı ilə Nizami Gəncəvi Beynəlxalq mükafatları təqdim olundu.

Forum işini sessiyalarla davam etdirir.

# Dünyanın yeni xarici siyasət konsepsiyasının ilk müddəaları Bakıda səsləndirildi...

*BMT Baş katibi çoxtərəfliliyin əhəmiyyətini əsaslandırmağa çalışdı, Monteneqro Prezidenti millətçiliyi düzgün anlamağa çağırdı...*

**Məlum olduğu kimi, Bakıda "Dünyanın yeni xarici siyasəti" mövzusunda VII Qlobal Bakı Forumu işə başlayıb. Forumda dünyanın 50 ölkəsindən 500 ictimai və dövlət xadimi iştitak edir. Forum ilk gündən maraqlı mülahizələrlə diqqət mərkəzinə çıxıb.**

Bəzi çıxışlardan müəyyən iqtibaslar da bunu sübut edir. Məsələn, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç qeyd edib ki, çoxtərəflilik və qaydalara əsaslanmış beynəlxalq nizam qlobal problemlərin həlli üçün ən yaxşı platforma olaraq qalmaqdadır: "Beynəlxalq dialoq, əməkdaşlıq, insan hüquqlarına hörmət və beynəlxalq hüququn qəbul olunmuş normalarına əməl olunması təhlükəsizliyin, sabitliyin və dayanıqlı inkişafının təmin olunmasının əsas mexanizmləridir. Biz bu bəşəri beynəlxalq dəyərləri, prinsipləri, hüquq və qaydaları müdafiə etməli, təşviq etməli və inkişaf etdirməliyik".

Ş.Caferoviçin sözlərinə görə, Bosniya və Herseqovina çoxtərəfliliyə və beynəlxalq konvensiyalardan meydana çıxan öhdəliklərə uyğun fəaliyyətə sadiqdir.

Monteneqro Prezidenti isə qeyd edib ki, bütün problemləri həll edə bilən formul mövcud deyil, bizim xarici siyasətimiz mütəmadi dəyişməlidir. Monteneqro Prezidenti Milo Cukanoviç qeyd edib: "Biz inkişaf edən dünya tendensiyalarına kömək etmək üçün millətçilik ideyasını düzgün anlamalıyıq. Avropa İkinci Dünya müharibəsindən sonrakı dövrdə daha mühüm nailiyyətlər kimi öz dəyərlərini qoruyub saxlamağa davam edəcək".

M.Cukanoviç bildirib ki, bütün problemləri həll edə bilən formul mövcud deyil: "Bizə qlobal səviyyədə çoxtərəflilikdən istifadə etmək lazımdır. Yalnız vətəndaşlarımızın yüksək həyat şəraitini təmin edəcəyimiz halda böyük və vacib məqsədlərə çatmaq olar. Bizim xarici siyasətimiz mütəmadi dəyişməlidir".

Bolqarıstanın Baş naziri Boyko Borisov isə diqqəti enerji təhlükəsizliyinə yönəldib.

O, Azərbaycan və Rusiya qazının hesabına mənbələrin şaxələndirilməsinin vacibliyini qeyd edib.

Azərbaycanla münasibətlərdən danışan B.Borisov bildirib ki, münasibətlər çox gözəldir. Baş nazir Bolqarıstanda "Trapezitsa" memarlıq-muzey qoruğunun, o cümlədən orta əsr kilsələrinin restavrasiyasında köməyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib: "Müsəlman ölkəsi Avropa kilsələrinin bərpası üçün vəsait ayırıb. Bu, müxtəlif dini olan ölkələrlə dostluq edə biləcəyimizin sübutudur".

İtaliya prezidenti Sercio Mattarella isə göndərdiyi yazılı müraciətində dünyada gərginlik və dözümsüzlüyün qarşısının alınması üçün Forumun müstəsna vacibliyini qeyd edib: "Mən 2018-ci ildə Bakıda Prezident İlham Əliyevlə məhsuldar görüşüm olub. Qlobal Forum anlaşılmazlıqların, gərginliyin və dözümsüzlüyün qarşısının alınması, eləcə də konkret təkliflərin siyasi səlahiyyətlərə malik şəxslərə çatdırılması üçün vacib əhəmiyyət daşıyır".

Müraciətdə qeyd olunur ki, müasir dövrün aktual problemləri həm hökumətlərin, həm də vətəndaş cəmiyyəti nümayəndələrinin fəal iştirakını tələb edir.

Britaniyanın baş naziri Tereza Mey öz müraciətində iki strateji enerji tərəfdaşı kimi Böyük Britaniya və Azərbaycan arasında əməkdaşlığın uzun onilliklər boyu davam edəcəyini deyib.

Müraciəti Britaniyanın Azərbaycandakı səfiri xanım Karol Krofts oxuyub.

T.Mey qeyd edib ki, Birləşmiş Krallıq və Azərbaycan 1992-ci ildə diplomatik münasibətlərin qurulmasından etibarən daha davamlı və dərin əlaqələr yaradıb, münasibətləri inkişaf etdiriblər: "Mən ötən ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevi Londonda salamlamaqdan şad oldum. Biz onunla geniş məsələləri müzakirə etdik və SOCAR ilə BP arasında hasilatın bölgüsü haqqında altı sazişin imzalanması mərasimində iştirak etdik. Bizim strateji enerji tərəfdaşlığı qismində əməkdaşlığımız qarşılıqlı inkişafa və təhlükəsizliyə mühüm töhfə verir və uzun onilliklər ərzində davam edəcək. Biz, həmçinin bir çox digər sahələrdə birgə çalışırıq. Biz qarşılıqlı hörmət və etimada söykənən əməkdaşlığı davam etdirəcəyik".

Müraciətdə o da bildirilir ki, Qlobal Bakı Forumunda qlobal siyasəti dəyişən problemlərə baxılacaq və forum sabiq, fəaliyyətdə olan və gələcək liderlər arasında dialoq və qarşılıqlı anlaşmaya kömək edəcək.

BMT-nin Baş katibi Antonio Quterreş Foruma müraciətində dünyanın çoxtərəfliliyə böyük ehtiyac duyduğunu deyib.

Müraciət BMT İnkişaf Proqramının Avropa və MDB üzrə Regional bürosunun direktoru Miryana Spolyariç Egger tərəfindən səsləndirilib.

Müraciətdə deyilir: "Mən VII Qlobal Bakı Forumunun keçirilməsinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkür edirəm. Dünyamız paradoksla üz-üzədir: problemlər bir-biri ilə bağlıdır, amma cavablar fraqmentlər şəklindədir. Ekoloji təhdidlər və silahlı münaqişələr, artan bərabərsizlik və dözümsüzlük fonunda çoxtərəflilik əvvəllər olmadığı kimi zəruridir. Amma bu, kifayət deyil. Biz göstərməliyik ki, insanların qorxu və həyəcanını aradan qaldırmağa imkan verən və hər kəsə fayda verəcək ədalətli qloballaşmanı yaradan qərarların həlli üçün səylərimizi birləşdiririk".

Bolqarıstanın sabiq prezidenti Rosen Plevneliev Azərbaycanın regiondakı rolundan xüsusi danışıb.

Keçmiş Prezident vurğulayıb ki, Azərbaycan regionda mühüm rol oynayır: "Azərbaycan sülhün, tolerantlığın carçısıdır. Forumda səmərəli fikir mübadiləsi aparılır, təcrübələr ortaya qoyulur. Hesab edirəm ki, hər kəs burada iştirak etməkdən məmnundur".

O bildirib ki, artıq Qlobal Bakı Forumu xeyli inkişaf edib və dünyada mühüm bir platformaya çevrilib.




Sloveniyanın keçmiş prezidenti Danilo Türk deyib ki, bu forum iştirakçılara dünyanı maraqlandıran mühüm məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün böyük imkan yaradır:

"Builki forum irəli atılan daha bir addımdır və xarici siyasətlə bağlı məsələlərin müzakirəsi üçün əlverişli şərait yaradıb".

Keçmiş prezident əlavə edib ki, Azərbaycan sivilizasiyalararası dialoqun qurulması istiqamətində çox gözəl işlər görür:

"Azərbaycan İslam ölkəsidir, lakin ölkə çox açıq fikirlidir. Azərbaycan hətta kilsələrin bərpa olunmasına dəstək göstərir ki, bu da xalqlar arasında inamın və dialoqun qurulmasına şərait yaradır. Bu cür işlərin görülməsi bu gün dünyaya daha çox lazımdır və Azərbaycan bu istiqamətdə çox gözəl işlər görür".

**Son illər davamlı olaraq ölkəmiz müxtəlif beynəlxalq əhəmiyyətli tədbirlərə uğurla evsahibliyi edir. Martın 14-də Bakıda başlayan BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu "Dünyanın yeni xarici siyasəti" mövzusuna həsr edilib. Martın 16-na qədər davam edəcək Forumda 450-dən çox qonaq iştirak edir.**

# Bakıda keçirilmiş 6 əvvəlki qlobal forumun dünya təhlükəsizlik tarixinə töhfələri...





***Aydın Mirzəzadə:** "Bakıda dünyanın qlobal məsələləri müzakirə edilir"*

***Vaqif Abışov:** "Qlobal Forumun ənənəvi olaraq keçirilməsində, əslində, məqsəd dünyada sülhə və təhlükəsizliyə nail olmağın yollarını beynəlxalq ictimaiyyətə göstərməkdir"*

Bakıda keçirilən sayca 7-ci olan Qlobal Forum dünyada sülh və təhlükəsizliyin təmin olunması baxımından praktik olaraq nə kimi faydalar verib?

**Millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkəmizdə VII Qlobal Forumun keçirilməsi olduqca əhəmiyyətlidir.** A.Mirzəzadənin bildirdiyinə görə, bu Forumun keçirilməsi dünyada sülh və təhlükəsizliyin qorunması, daha da dayanıqlı olması üçün çox önəmlidir. Millət vəkili qeyd etdi ki, Azərbaycandan bütün dünyaya yayılan mesajlar, çağırışlar bəşəriyyətdə sülh və əmin-amanlığın, təhlükəsizliyin bərqərar olmasına töhfələr verir. "Bakı artıq çoxdan dünyanın diplomatik mərkəzlərindən birinə çevrilib. Bakıda dünyanın qlobal məsələləri müzakirə edilir və sözsüz ki, burada sülh və təhlükəsizlik məsələləri də diqqət mərkəzindədir. Müxtəlif ölkələrdən gələn nüfuzlu dövlət və siyasət xadimləri bu problemin həlli ilə bağlı öz baxışlarını ortaya qoyurlar. Eyni zamanda, Azərbaycan təcrübəsi çox diqqətlə izlənir. Forumun artıq 7-ci dəfə baş tutması dünyanın diqqətini yenidən Bakıya yönəltməyə imkan verir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Forumda iştirak etməsi və aktual məsələlərlə bağlı çıxış etməsi də Forumun diqqətini bu gün ciddi məsələlərə yönəltməyə imkan verdi. Ermənistanın Azərbaycanın torpaqlarının bir hissəsini indiyə qədər işğal altında saxlaması məsələsi dünyanın ağrılı məsələlərindən biri kimi bir daha vurğulandı. Qonaqlar Azərbaycanın dövlətçiliyinin, iqtisadiyyatının, sosial vəziyyətinin yaxşılaşdırılması təcrübəsilə tanış olmaqda maraqlıdırlar. Ümumən götürdükdə Qlobal Forumu həm Azərbaycanın, həm də dünyanın ictimai-siyasi həyatında çox ciddi bir hadisə hesab etmək olar" - deyə A.Mirzəzadə vurğuladı.

**Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, tarixçi-alim Vaqif Abışov da hesab edir ki, Azərbaycan bu Forumu keçirməklə dünyada sülh və təhlükəsizliyin qorunmasına böyük töhfələr verib.**

O qeyd etdi ki, ölkəmiz multikulturalizm və tolerantlıq kimi ali insani dəyərlərlə bütün dünya üçün təhlükəsizliyin ünvanı olduğunu bir daha sübut edir.

Alimin sözlərinə görə, Azərbaycanda keçirilən bütün beynəlxalq humanitar tədbirlərdən dünyaya sülh çağırışları yayılır. "Qlobal Forumun ənənəvi olaraq keçirilməsində, əslində, məqsəd dünyada sülhə və təhlükəsizliyə nail olmağın yollarını beynəlxalq ictimaiyyətə göstərməkdir. Bu mənada ki, Azərbaycanda sülh və təhlükəsizlik bütün mənalarda öz əksini tapıb. Ölkəmiz birgəyaşayışın örnəyini öz təcrübəsində göstərib. Məlumdur ki, tolerantlıq, dözümlülük olmasa, nə sülhə, nə də təhlükəsizliyə nail olmaq olar. Ermənistanın uzun illərdir torpaqlarımızı işğal altında saxlaması sülhün və dincliyin pozulmasına xidmət edir. Bu ölkə nəinki Qafqaz üçün, eləcə də dünyanın özü üçün böyük təhlükə mənbəyidir. Bütün dünya Ermənistanın sülhü pozmağa xidmət edən əməllərini ifşa etməlidir".

Tarixçi-alim vurğuladı ki, bu gün Azərbaycandan bütün dünyaya sülh və təhlükəsizliklə bağlı çağırışlar yayılır və bu da ölkəmizin nüfuzunu daha da artırır. Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Azərbaycanda multikultural və tolerant mühitin olmasını bir daha göstərdiyini deyən V.Abışov qeyd etdi ki, bu da Azərbaycanın sülhə, təhlükəsizliyə münasibətinin göstəricisi kimi beynəlxalq səviyyəli təşəbbüslərdə praktik müstəvidə özünü göstərir.

*İradə SARIYEVA*

# "Sülh və təhlükəsizlik üçün su" mövzusunda tədbir keçirildi

**Ötən gün Beynəlxalq Avrasiya Mətbuat Fondu tərəfindən BMT-nin Cenevrə ofisində İnsan Haqları üzrə 40-cı sessiya çərçivəsində Su, Ətraf Mühit və Sağlamlıq üçün Qlobal İnstitutla birgə "Sülh və təhlükəsizlik üçün su" mövzusunda tədbir keçirilib.**

Tədbirin moderatoru Su, Ətraf Mühit və Sağlamlıq üçün Qlobal İnstitutun rəhbəri, Asiya Su Şurasının İdarə Heyətinin üzvü Nidal Salim dünyada sudan təzyiq vasitəsi kimi istifadənin dayandırılmasına çağırıb. O, su çatışmazlığının insanın gündəlik həyatına, ətraf mühitə, iqtisadiyyata, cəmiyyətə təsirlərindən danışıb. Sudan doğru-düzgün istifadə edilməməsi səbəbindən baş verən müharibələrdən, dağıntılardan söz açıb. Onun sözlərinə görə, su insan varlığının, iqtisadiyyatın əsas mənbəyini təşkil edir və bu gün sudan təsir vasitələrindən biri kimi istifadə yolverilməzdir.

Tədbirdə çıxış edən BAMF prezidenti Umud Mirzəyev Azərbaycanın 30 ildən çoxdur işğaldan əziyyət çəkdiyini, ərazilərimizin 20 faizindən çoxunun Ermənistan tərəfindən işğal edildiyini, bir milyondan çox insanın qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qaldığını dilə gətirib. Bundan savayı, 1992-ci ildən erməni hərbi birləşmələrinin işğalı altında olan Sərsəng su anbarı və digər su mənbələrindən ölkəmizə qarşı siyasi-iqtisadi təsir vasitəsi kimi istifadə edildiyini auditoriyanın diqqətinə çatdırıb. Minlərlə insanın, eləcə də 96 min ha ərazinin su çatışmazlığından əziyyət çəkdiyini qeyd edib. O, insan hüquqları və ətraf mühitin qorunması, regionda sülhün, dayanıqlı inkişafın təmin edilməsi, işğal altında saxlanan ərazilərin azad olunması üçün vətəndaş cəmiyyəti qurumlarını öz səylərini birləşdirməyə səsləyib. Daha sonra suyun təbii axınına məhdudiyyətlərin qoyulması səbəbindən Azərbaycanın yaşadığı çətinliklər BAMF-ın hazırladığı "Su - Müharibə maşını" sənədli filmi vasitəsilə auditoriyaya çatdırılıb.



BMT-nin İnsan Haqları Şurasının Xüsusi Qaydalar üzrə İşçi Qrupunun üzvü professor Osman Əl Hacc su mənbələrinin istifadəsi zamanı təhlükəsizliyin qorunması, eləcə də beynəlxalq hüquq normalarından danışıb. O, Azərbaycana qarşı sudan təzyiq vasitəsi kimi istifadəni beynəlxalq cinayət adlandırıb. Bunun beynəlxalq arbitraj məhkəməsinə çıxarılmasının vacibliyini qeyd edib.

BAMF prezidentinin köməkçisi Anastasiya Lavrina su və ekoloji dağıntılar mövzusunda çıxış edib. O, işğal olunmuş ərazilərdə su infrastrukturunun dağıdılmasının, nəzarətsiz ərazilərdə sudan qeyri-insani istifadə olunmasının, işğalın davam etdirilməsinin yolverilməz olduğunu bildirib. Bunun qarşısının alınması üçün beynəlxalq qurumlara səslənib.

Daha sonra auditoriyanın sualları dinlənib. BAMF-ın vitse-prezidenti Ramil Əzizov verilən sualları cavablandırıb. Suyun siyasi məqsədlər üçün istifadəsinin insan haqlarına təsiri, təhlükəsizlik məsələlərindən danışıb.

*Günel CƏLİLOVA*

# Paşinyandan format uğursuzluğunun ardınca yeni oyun tezisi - qondarma "DQR" mənə səlahiyyət vermədi...

**"Danışıqlar prosesində "Qarabağ xalqı"nı təmsil etmək üçün səlahiyyət və legitimliyə sahib olan heç kim yoxdur". Bunu Xankəndidə keçirilən Ermənistan Milli Təhlükəsizlik Şurasının iclasında Baş nazir Nikol Paşinyan deyib.**



*"Onun format barədə siyasi avantürası və bu kimi gedişləri..."*

## *Məhəmməd Əsədullazadə: "Belə açıqlamalar danışıqları əngəlləmək üçün növbəti bəhanədir"*

Onun sözlərinə görə, "DQR"in danışıqlara cəlb edilməsi kapriz deyil, bu, münaqişənin həlli prosesinin səmərəliliyi üçün vacib əhəmiyyətə malik olmasının sadə fiksasiyasıdır: "Əvvəl danışıqlar prosesinin çevrəsi özündə bir tərəf istisna olmaqla bütün maraqı tərəfləri əhatə edirdi. Burada İlham Əliyev Azərbaycan və Dağlıq Qarabağın azərbaycanlı icmasını təmsil edir. Onlar Azərbaycan vətəndaşlarıdır və seçkilərdə iştirak ediblər. Deməli, İlham Əliyevin danışıqlarda iştirakı onların da iştirakını təmin edir. Ermənistan danışıqlarda Baş nazirlə, beynəlxalq ictimaiyyət isə ATƏT-in Minsk Qrupunun həmsədrləri simasında təmsil olunur. Ancaq əsas məsələ danışıqlar prosesində "Qarabağ xalqı"nı və ya bəzi hallarda deyildiyi kimi, Qarabağ ermənilərini kimin təmsil etməsidir. Danışıqlar prosesində "Qarabağ xalqı"nı təmsil etmək üçün səlahiyyət və legitimliyə sahib olan heç kim yoxdur".

Paşinyanın sözlərinə görə, onu Qarabağda seçməyiblər və buna görə də danışıqlarda Xankəndini təmsil etmək hüququ yoxdur. Ona belə səlahiyyət verilməyib.

Paşinyan bu cür mövqeyə sahib olmaqla məsuliyyəti üzərindən atması və hər şeyi Qarabağ hakimiyyətinin üzərinə yükləməsi ilə bağlı verilən şərhləri gülünc adlandırıb.

Bütün bunlar onu göstərir ki, danışıqların formatının dəyişdirilməsi məsələsində ciddi uğursuzluğa düçar olan Paşinyan indi də səlahiyyət məsələsini ortaya atıb. Məlum olduğu kimi, Paşinyan istəyirdi ki, separatçı qurum danışıqlarda tərəf olsun. Bu məqsədlə danışıqların formatını dəyişmək istəyirdi. Ancaq bunu ATƏT və digər beynəlxalq qurumlar dəstəkləmədilər. Belə olan halda, Paşinyan növbəti bəhanə ilə danışıqlardan yayınmaq istəyir.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bu, Paşinyanın növbəti oyunudur:** "Əvvəla Ermənistan Baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərində Təhlükəsizlik Şurasının iclasını keçirməsi birbaşa danışıqların sabotajıdır. Minsk Qrupunun həmsədrlərinin məlum bəyanatından sonra, göründüyü kimi, rəsmi İrəvanın siyasi manevrləri heçə enir. O qeyd edir ki, separatçılar ona danışıqlar aparmaq barədə səlahiyyət verməyiblər. Belə açıqlamalar danışıqları əngəlləmək üçün növbəti bəhanədir. Onun format barədə siyasi avantürası və bu kimi gedişləri heç bir siyasi mənzərəni dəyişməyəcək. Ermənistan birbaşa işğalçı tərəfdir və danışıqlar İrəvanla aparılacaq. Paşinyan hazırda çox ciddi şəkildə "Qarabağ klanı"ndan çəkinir. Azərbaycanın işğal altında olan torpaqlarında yaratdıqları qondarma qurum da anneksiya siyasətinin tərkib hissəsidir. Hesab edirəm ki, Paşinyanın bu açıqlamalarına baxmayaraq, o, Azərbaycan Prezidenti İlham Əliyevlə razılaşdırılmış rəsmi görüşə qatılacaq. İşğalçı ölkənin təmsilçisi kimi danışıqlar aparacaq. Rəsmi Bakı hazırda yeni görüşü gözləyir. Bu görüşdən sonra sular durulacaq. Hətta Ermənistanda Paşinyanın torpaqların qaytarılması istiqamətində siyasət apardığı qeyd edilir. Ermənistan cəmiyyətində çox ciddi vəziyyət yaranıb. Paşinyan Levon Ter-Petrosyanın planını həyata keçirməyə çalışmaq istəyir. Çünki inqilabla hakimiyyətə gəlişi iqtisadi problemlərin həllinə töhfə verməlidir. Bu da Qarabağ konfliktinin həllindən keçir. Paşinyan buna hazır olmasa, iqtisadi geriləmə davam edəcək. Paşinyan nə qədər bəyanat versə də, o, növbəti mərhələdə ərazilərin qaytarılması istiqamətində danışıqlara məhkumdur".

***Vidadi ORDAHALLI***

# ATƏT sədrinin qondarma "DQR" "nazir"i və saxta qaçqın rəhbərlə görüşü - erməni mediasının sədrlə bağlı yaydığı iki fakt aydınlaşma tələb edir...

**Erməni mətbuatının yaydığı məlumata görə, ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak İrəvanda Dağlıq Qarabağdakı separatçı qurumu təmsil edən bəzi "rəsmi" şəxslərlə görüşlər keçirib.**



*"Bu onu göstərir ki, əvvəllər olduğu kimi, indi də qurumun mövqeyində ikili standartlar var"*

## *Elşən Manafov: "Separatçı qurum təmsilçiləri ilə belə görüşlərin keçirilməsi kökündən səhv addımdır"*

Məlumatda qeyd olunub ki, ATƏT sədri M.Layçakla "Arsax"ın "xarici işlər naziri" Masis Mailyan arasında görüş keçirilib. Separatçı qurumun təmsilçisi ATƏT sədrinə bildirib ki, danışıqlarda köhnəlmiş prinsiplərdən imtina edilməlidir.

Digər bir məlumatda qeyd olunur ki, ATƏT sədri özünü "Arsax qaçqınlar ittifaqı"nın "sədri" kimi təqdim edən Sarasar Saryanla da görüşüb. O da cəfəngiyyat danışaraq Azərbaycanın ünvanına böhtanlar səsləndirib.

İstənilən halda, ATƏT sədrinin separatçı qurum təmsilçiləri ilə bu kimi görüşlər keçirməsi doğru yanaşma deyil. Çünki tanınmamış bu cür separatçı qurum təmsilçiləri ilə belə görüşlər onların xeyrinə işləyə bilər. Məsələ ondadır ki, belə hallardan separatçı tərəf maksimum təbliğat üçün istifadə edir. MDB məkanında digər separatçı ocaqlar da var və indiyə qədər ATƏT rəsmiləri onları yaxın belə buraxmayıblar. Ancaq Dağlıq Qarabağdakı separatçılara münasibət bir qədər fərqlidir. Başqa bir tərəfdən, belə bir görüşün keçirilməsi həqiqətə uyğun deyilsə, o zaman ATƏT dərhal bunu təkzib etməli idi. Buna da hər hansı reaksiya yoxdursa, bunun özü də növbəti bir yanlış addımdır. Hər iki halda yanlışlıq ortadadır. Nəzərə almaq lazımdır ki, belə hallar ən azından qondarma "DQR"ın təbliğinə xidmət edir. Separatçı tərəf bundan sui-istifadə edir.

O baxımdan, bunu ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, separatçı qurum təmsilçiləri ilə belə təmasların qurulması tamamilə yanlışdır:** "Separatçı qurum təmsilçiləri ilə belə görüşlərin keçirilməsi kökündən səhv addımdır. Eyni samanda, bu, ATƏT-in mandatına uyğun deyil. Çünki BMT-nin Təhlükəsizlik Şurası tərəfindən ATƏT-ə bu mandat tərəflər arasında münaqişənin tənzimlənməsi məqsədilə verilib. Əslində, separatçı qurum təmsilçiləri ilə aparılan görüşlər ATƏT sədrinin bu günlərdə Bakıda Prezident İlham Əliyevlə görüşü zamanı səsləndirdiyi fikirlərlə də daban-dabana ziddiyyət təşkil edir. Çünki ATƏT sədri bəyan etdi ki, danışıqlarda formatın dəyişdirilməsinə ehtiyac yoxdur. Ancaq Dağlıq Qarabağdakı separatçı qurum təmsilçilərinin İrəvanda ATƏT sədri tərəfindən qəbul edilməsi göstərir ki, əvvəllər olduğu kimi, indi də qurumun mövqeyində ikili standartlar var. Əslində, separatçı qurumun təmsilçiləri ilə bu kimi görüşlərin keçirilməsi müəyyən məqsədlərə hesablana bilər. Yəni dolayısı yolla istəyirlər ki, separatçı qurum Azərbaycan rəhbərliyi ilə eyni masaya otursun. Fikrimcə, bunun arxasında belə niyyət dayana bilər. Bu da Paşinyan hakimiyyətinin maraqlarına cavab verir. Məsələ ondadır ki, Paşinyan da bunu istəyir. Dəfələrlə çalışıb ki, separatçı qurum danışıqlarda tərəf olsun. Ona görə də ATƏT sədrinin separatçılarla görüşü erməni "dəyirmanına su tökür". Hesab edirəm ki, bu yolverilməzdir. Separatçı qurum belə təmaslardan təbliğat məqsədi üçün istifadə edir. Başqa bir tərəfdən, sözügedən məlumatlar həqiqəti əks etdirmirsə, o zaman ATƏT buna izahat verməli idi. Ancaq təəssüflər olsun ki, ortada olan ikili standartlar səbəbindən biz bunu da görmürük. Bütün bunlara baxmayaraq, biz siyasi və hərbi müstəvidə səylərimizi gücləndirməliyik".

***Vidadi ORDAHALLI***

**Son bir neçə gündür Rusiyada Azərbaycana yönəlik maraqlı və xoşagəlməz hadisələr cərəyan edir. Bir müddət əvvəl məqsədli şəkildə qızışdırılan çeçen-azərbaycanlı qarşıdurmasında yenidən qığılcımlar nəzərə çarpmağa başlayıb.**



*"Azərbaycan hakimiyyətinin Rusiya vətəndaşı olan erməni əsilli şəxslərin ölkəyə gəlişini qadağan etməsi milli maraqlara cavab verən qərardır və mövcud reallıqdan irəli gəlir"*

# Rusiyada Azərbaycanın maraqları ilə uzlaşmayan üç hadisənin dalbadal baş verməsi - təsadüf, ya...

## *İsmayıl Ağayev: "Bunu edənlər Rusiya hakimiyyətində olan və erməni lobbisinin təsiri altında fəaliyyət göstərənlərdir"*

Qeyd edək ki, bu yaxınlarda milli ədavət zəminində iki milləti Rusiyada üz-üzə gətirməyə cəhdlər edilmişdi. Ancaq Azərbaycan və Çeçenistan rəsmilərinin, hər iki millətin tanınmış ziyalılarının müdaxiləsindən sonra həmin təxribatın qarşısı alındı.

İki gün əvvəl Moskvada baş verən kriminal hadisəyə diqqət etdikdə, təəssüflənməmək olmur. Moskvada üç naməlum şəxs təkər təmiri məntəqəsinin əməkdaşlarına hücum edib. Hadisə yerli vaxtla səhər saatlarında baş verib. Hücum edənlər məntəqədə olan iki azərbaycanlıya bir neçə bıçaq yarası vurublar, ardından hadisə yerindən uzaqlaşıblar. Polis hadisə yerinə gəlməzdən əvvəl moskvalılar təkər təmiri məntəqəsində atışma barədə 02-yə məlumat veriblər.

Polis əməkdaşları "Mercedes" avtomobilində hərəkət edən şübhəlilərdən birini saxlayıblar. İlkin məlumata görə, o, Moskvada yaşayan çeçendir. Yaralılar xəstəxanaya kəllə-beyin travmaları, kəsici-deşici yaralar və travmatik silahın tətbiqi nəticəsində yaranmış odlu silahdan yaralarla çatdırılıb. Çox təəssüflə qeyd etməliyik ki, bu hadisəyə adi kriminal hesablaşma kontekstindən yanaşmaq olmur. Çünki hazırda Rusiyadan Azərbaycanla bağlı qeyri-müəyyən addımların atıldığını görürük. Son bir neçə gündür Moskva şəhərində azərbaycanlılara məxsus olan bazarlarda polis reydlərinin, kütləvi yoxlamaların olduğu ilə bağlı informasiyalar yayılır. Bununla bağlı qeyd edilir ki, proses ticarətlə məşğul olan soydaşlarımızın sıxışdırılması ilə müşahidə edilir. Ən maraqlısı isə elə bu ərəfədə Rusiya Xarici İşlər Nazirliyinin erməni əsilli vətəndaşlarının Azərbaycana buraxılmadığını bəhanə edərək, bütün vətəndaşlarına ölkəmizə səfər etməməklə bağlı müraciət etməsidir. Azərbaycanla bağlı olan bu üç hadisə arasında hansısa əlaqə ola bilərmi?

**Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayev qəzetimizə açıqlamasında bildirdi ki, Rusiya böyük ölkədir, orda heç bir hadisə elə-belə baş verə bilməz:** "Biz prosesləri yaxından izləyirik. Sanki Rusiyadakı hansısa maraqlı qüvvələr Azərbaycana və həmin ölkədə yaşayan soydaşlarımıza qarşı hücuma keçiblər. Mən bunu Rusiyanın dövlət siyasətindən irəli gələn addım kimi xarakterizə etməzdim. Çünki Rusiya ilə ölkəmiz arasında çox yaxşı münasibətlər mövcuddur. Bunu edənlər Rusiya hakimiyyətində olan və erməni lobbisinin təsiri altında fəaliyyət göstərənlərdir. Təəssüflə qeyd etməliyik ki, onların əhatəsi, təsir imkanları bəzən elə geniş və güclü olur ki, Rusiyanın rəsmi qurumlarının adı ilə də ortaya mövqe qoya bilirlər. İki gün əvvəl çeçenlərin etdiyi hərəkət və Azərbaycan əsilli iş adamlarının Rusiyada sıxışdırılması ilə bağlı hadisələrin arasında bir rabitə görürəm. XİN-in bəyanatı isə bu hadisələrə siyasi dəstək verildiyinin göstəricisidir. Azərbaycan hakimiyyətinin Rusiya vətəndaşı olan erməni əsilli şəxslərin ölkəyə gəlişini qadağan etməsi milli maraqlara cavab verən qərardır və mövcud reallıqdan irəli gəlir.

Həmin şəxslərin özlərinin təhlükəsizliyinin təmin olunmasının mümkünsüzlüyünü və onların Azərbaycanda təxribatlar törətmək ehtimalının yüksək olduğunu nəzərə alsaq, bu qərarın düzgün olduğunu deməliyik.

Hesab edirəm ki, Azərbaycanın müvafiq qurumları Rusiyada baş verən və bizim maraqlarımıza zidd olan silsiləvi hərəkətlərlə bağlı həmin ölkə rəsmilərindən izahat tələb etməlidirlər".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Gürcüstan Prezidenti Salome Zurabişvili Ermənistana rəsmi səfəri zamanı qondarma "erməni soyqırımı"na ucaldılmış "Çiçernakaberd" kompleksini ziyarət edib. Bununla belə, Zurabişvili Ermənistan Prezidenti Armen Sarkisyan, Baş nazir Nikol Paşinyan və digər şəxslərlə görüşlər keçirib.**



*"Belə hallar millətlərarası münasibətlərin yaxşılaşmasına xidmət etmir"*

# Daha bir Gürcüstan Prezidenti İrəvanda saxta genosid abidəsinə ikiqat əyildi...

## *Qabil Hüseynli: "Zurabişvilinin qondarma "soyqırım" abidəsini ziyarət etməsi Gürcüstan maraqlarından çox, Ermənistanın maraqlarına xidmət edir"*

Onu da qeyd edək ki, Zurabişvili "soyqırım" muzeyində də olub. Bu o deməkdir ki, Zurabişvili 100 il əvvəl ermənilərin "soyqırıma" məruz qalmasını qəbul edir. Aydındır ki, bu nə Azərbaycanda, nə də Türkiyədə xoş qarşılana bilməz. Halbuki, Ermənistana səfər edən digər ölkə rəsmiləri heç də həmişə protokola görə addım atmırlar. Bəzi dövlət başçıları Ermənistana səfər edərkən "soyqırım" abidəsini ziyarət etmirlər. Gürcüstan Prezidenti də bu ölkənin Azərbaycan və Türkiyə ilə olan yaxın qonşuluq əlaqələrini nəzərə alıb məlum addımı ata bilərdi. Ancaq təəssüflər olsun ki, onun Ermənistana səfəri qondarma "soyqırım" abidəsini ziyarət etməklə başladı. Digər tərəfdən, S.Zurabişvili İrəvandakı çıxışında dedi ki, Gürcüstanda ermənilərin və azərbaycanlıların sülh şəraitində yaşamalarını istəyir: "Gürcüstan vətəndaşları - etnik ermənilər və azərbaycanlıların respublika ərazisində sülh şəraitində yaşaması olduqca önəmlidir".

O da məlumdur ki, son günlərdə Gürcüstanda ermənilərlə azərbaycanlılar arasında münasibətlərdə müəyyən gərginlik var. Buna səbəb Xocalı soyqırımında iştirak edən terrorçuya abidənin qoyulmasıdır. Məlum məsələ ciddi narazılığa səbəb olub.

Bütün bu deyilənlərlə yanaşı, Gürcüstan Prezidentinin həm qondarma "soyqırım" abidəsini ziyarət etməsi, həm də bu ölkədə yaşayan ermənilərin və azərbaycanlıların sülh şəraitində yaşamasını istəməsi nə dərəcədə bir-birilə uzlaşır? O üzdən, bunu ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən politoloq Qabil Hüseynli Zurabişvilinin bu addımına mənfi prizmadan yanaşdı:** "Xanım Zurabişvilinin qondarma "soyqırım" abidəsini ziyarət etməsi Gürcüstan maraqlarından çox, Ermənistanın maraqlarına xidmət edir. O nəzərə almalı idi ki, bu bir uydurmadır. Bunu da ermənilər uydurub. Gürcüstan Prezidenti bu ölkənin Azərbaycan və Türkiyə ilə olan yaxın münasibətlərini, əlaqələrini nəzərə almalı idi. Eyni zamanda, belə hallardan çəkinməli idi. Gürcüstan kiçik dövlətdir. Bu dövlət qondarma "erməni soyqırımı" məsələsində oyunçu roluna girməməlidir. Nəzərə almalı idi ki, Gürcüstan çoxmillətli dövlətdir. O baxımdan hesab edirəm ki, onun bu addımı yanlış idi. Gürcüstanın həddi deyil ki, belə məsələlərdə kiminsə tərəfini tutsun. Çünki bu ölkənin də başı dərddədir. Gürcüstan neçə illərdir separatizmdən əziyyət çəkir, ərazilərinin bir hissəsinə nəzarət edə bilmir. Zurabişvili Ermənistana səfərində qondarma "soyqırım" abidəsini ziyarət edirsə, o zaman Xocalı soyqırımı ilə bağlı abidəni niyə ziyarət etmədi? O, Ermənistandan əvvəl Azərbaycana səfər edib. Xocalı soyqırımı ilə bağlı ucaldılan "Ana harayı" abidəsini ziyarət edə bilərdi. Belə olsaydı, bəlkə də bu hardasa onun balanslaşdırılmış siyasət həyata keçirməsi təsiri bağışlaya bilərdi. O isə Türkiyənin duyğularına toxunan bir addım atdı. Eyni zamanda, bu, Azərbaycanın maraqlarına qarşıdır. Belə hallar millətlərarası münasibətlərin yaxşılaşmasına xidmət etmir. Bir tərəfdən Zurabişvili qondarma "soyqırım" abidəsini ziyarət edir, o biri tərəfdən Gürcüstanda yaşayan ermənilərin və azərbaycanlıların sülh şəraitində yaşamaları ilə bağlı çağırışlar edir. Ona görə də atılan addımlar bir-birinə uyğun gəlmir".

***Vidadi ORDAHALLI***

**Ermənistanda mövcud hakimiyyətlə Rusiya arasında münasibətlər hələ də gərgin xətt üzrə inkişaf edir. Yaranmış vəziyyətdə Ermənistanda belə bir fikir getdikcə möhkəmlənir ki, Kreml Ermənistanda yeni hakimiyyət çevrilişi həyata keçirmək niyyətindədir. Bu xüsusda İrəvanda fəaliyyət göstərən "Lazarev klubu"na getdikcə daha çox diqqət artır.**

# Məşhur Zatulin Paşinyana qarşı əsas əksinqilabçı fiqur rolunda...

*"Ermənistanın taleyini bir klub həll edə bilməz" kimi cavablar eşidilməyə başlayır*



Xatırladaq ki, Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulinin təşəbbüsü ilə ötən il "Qriboyedov klubu"nu əvəzləməli olan "Lazarev klubu" yaradılıb. Məsələ ilə bağlı "Iragir" portalı yazır ki, klubun yaradılması Ermənistan-Rusiya münasibətlərinə yeni nəfəs verilməsi və iki cəmiyyət arasında əlaqələrin genişləndirilməsinin gərəkliyi ilə şərtlənib. O da qeyd olunur ki, bu klub hazırda Ermənistanda daha çox destruktiv bir durum formalaşmasına maraq göstərir: "Bu klubun təmsilçiləri son zamanlar Rusiyanın erməni icmasının üstünlüyü, Ermənistan inqilabında Qərb izləri, Rusiyaya inqilab ixracı və sair barədə qızğın piara başlayıblar. Erməni soyadlı politoloqlar və ictimai-siyasi xadimlər özəlliklə buna fəal cəlb olunur. Zatulinin özü də Rusiya televiziyasında antiermənistan nitqilə çıxış edir".

Mövzunu davam etdirən "1-in.am" portalı da Rusiyanın Ermənistana yanaşmasının getdikcə daha təhlükəli hal aldığını yazır: "Moskvanın "Dialoq" təşkilatının sədri Yuri Navoyan Ermənistan hökumətinə açıq məktub göndərərək, Konstantin Zatulinin qurduğu "Lazarev klubu"nun gələcək hədəfləri haqda narahatlıq ifadə edib. Navoyan öz məktubunda özəlliklə baş nazir Nikol Paşinyana, prezident Armen Sarkisyana, Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryana və parlament spikeri Ararat Mirzoyana müraciət edib: "Siz bilirsinizmi ki, Zatulin Ermənistanda devrilmiş güclərin birləşməsinə və qisas almasına yardım etməyə can atır?"

Navoyan aydınca vurğulayır ki, klub Köçəryanyönlü istiqamətə malikdir. Bu o mənada sirr deyil ki, Köçəryanın özü azadlıqda olduğu vaxt klubun toplantılarından birində nitqlə çıxış edib. Və mübahisəli fəaliyyəti olan bu klubun son yığıncağında Qarabağa bitişik ərazilərin Azərbaycana verilməsi yolu ilə Dağlıq Qarabağ münaqişəsini həll etməyə çağırış olub. Yeri gəlmişkən, Navoyan ortalığa çıxardır ki, klubun gizli imzaçılarından biri Serj Sarksiyanın sədri olduğu Respublika Partiyasının sədr müavini Vigen Sarkisyandır.

Siyasi və seçki texnologiyaları üzrə ekspert Armen Bədəlyanın fikrincə, bu klubun fəaliyyəti Ermənistanın daxili-siyasi həyatına, çətin ki, hər hansı təsir göstərər: "Bu yalnız bizim daxili-siyasi proseslərimiz haqqında Rusiyanın bəzi ekspert çevrələrinin rəyini formalaşdıra bilər. Amma özəlliklə Ermənistan hökuməti adekvat islahatlar aparsa, daxili-siyasi proseslərə ciddi təsir göstərməz".

Bədəlyan vurğulayıb: "Nəhayət anlamalıyıq ki, Ermənistanın taleyi Ermənistan vətəndaşlarının, hökumətyönlü və müxalif güclərin və müxtəlif QHT-lərin əlindədir. Aydındır ki, bu klub qurulub və keçmiş hakimiyyətin bəzi seqmentləri onda öz rolunu oynayır. Amma bu, Ermənistanın daxili-siyasi həyatına mənfi təsir edən klub deyil. Hökumət və müxalifət günün adekvat gündəliyini və ya islahatlar proqramı təqdim etməsə, Ermənistanın siyasi həyatı ziyan görəcək. Düşünürəm ki, gerçək təhlükə bundadır".

Bu klubun Ermənistanın devrilmiş siyasi gücləri vasitəsilə qisas həyata keçirməyə çalışdığı haqda baxış nöqtəsinə gəlincə, Armen Bədəlyan cavab verib: "Əlbəttə, bunun piar mənası var. Qisas seçkilər zamanı seçki prosesi vasitəsilə və konstitusiya üsullarıyla təşkil edilə bilər. Lakin onlar keçmiş hökumətin indiki potensialına görə hakimiyyətə gələ bilməzlər. Ola bilsin, Respublika Partiyası və ya daşnaklar gələcək parlament seçkiləri zamanı parlamentə düşə bilsin, amma indi siyasi meydanda yoxluqları və rebrendinqin mümkünsüzlüyü üzündən belə təşvişə düşməyi çox məntiqsiz sayıram. Hakimiyyət islahatlara getməsə, keçmiş hakimiyyət isə rebrendinqə məruz qalarsa, bu, tamamilə mümkündür. Mənim fikrimcə, klub inidi buna bənzər heç nə edə bilməz, hər halda mən belə bir iddiada olmazdım. Onların təşkil etdikləri piar keçmiş hakimiyyəti qaytarmaq üçün olduqca cüzidir".

Politoloq Hagik Ambaryan isə Respublika Partiyasından keçmiş deputatların daxil olduqları "Qriboyedov klubu"nun fəaliyyətini yada salıb: "Klub sonradan özünü tükətdi, Rusiya hökuməti yenisini yaratmağı qərara alıb. Bu indi Rusiyada, başda Zatulin olmaqla, erməniyönlü lobbiçilik fəaliyyəti aparan, demək olar, eyni məqsədi olan "Lazarev klubu"dur. Məxməri inqilabdan sonra bizə bəlli oldu ki, Zatulin açıq antipaşinyan xətti tutub. Cənab Navoyanın bəyanatı bu mənada böyük sürpriz olmamalıdır".

Ambaryanın sözlərinə görə, indi problem sıradakındadır: "Ermənistan hökuməti bu klubun fəaliyyətinə ona sərf edən şəkildə rəhbərlik edə biləcəkmi? Buna ciddi şübhəm var".

Ambaryan qeyd edib ki, Dövlət Dumasında erməniyönlü deputatlar olsalar da, Rusiya siyasi elitası, yumşaq deyilsə, Paşinyana və komandasına tənqidi yanaşır: "Cənab Navoyanın xəbərdarlığı əsasında Ermənistan hökumətinin bu kluba qarşı demarşının Ermənistan-Rusiya münasibətləri üçün nəticələrinin necə olacağını bilmirəm. Ermənistan-Rusiya münasibətləri mürəkkəb mərhələdədir, bunun parlaq sübutu konkret antipaşinyan fəaliyyətilə məşğul olan bu klubun işidir". Bütün bunlar Rusiya və Ermənistan arasında gərgin münasibətlərin davam edəcəyi, tərəflərin münasibətlərinin daha da gərginləşməsinin qaçılmaz olduğunu da deməyə əsas verir.

*Tahir TAĞIYEV*

# MDB-də istehlakın bahalaşmasına görə Ermənistan "lider" oldu...



*"Xaricdə yaşayan ermənilər tərəfindən ölkəyə göndərilən valyutanın azalması..."*

***Aydın Hüseynov:** "Ermənistanda qiymət artımı tək istehlak mallarında deyil, bir sıra sahələrdə özünü uzun müddət göstərəcək"*

**2019-cu ilin yanvarında MDB ölkələrində sənaye istehsalı keçən ilin analoji dövrü ilə müqayisədə 1,3% artıb. Bu barədə məlumatı MDB Statistika Komitəsi yayıb.**

Məlumata görə, cari ilin yanvarında istehlak qiymətləri MDB ölkələrinin ərazisində 1% yüksəlib.

İstehlak qiymətləri ən çox Ermənistanda (1,7%) yüksəlib. Ondan sonrakı yerləri Özbəkistan (1,5%) və Moldova (1,3%) tutub. Ən az artım isə Qazaxıstan (0,5%), Qırğızıstan (0,4%) və Azərbaycanda (0,2%) qeydə alınıb. Yanvar ayında MDB ölkələri arasında ən çox Tacikistanda ümumdaxili məhsul artımı (7,3%) yaşanıb.

Cari ilin yanvar ayında istehlak qiymətlərinin ən çox Ermənistanda yüksəlməsi barədə fikir bildirən **millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Ermənistanda qiymət bahalaşması hələ uzun müddət davam edəcək. Qiymət artımı tək istehlak mallarında deyil, bir sıra sahələrdə özünü göstərəcək:** "Məlumdur ki, Ermənistan artıq özünü dünyadan təcrid etmə dövrünü yaşayır. Çünki həmin ölkə işğalçılıq siyasəti apardığı üçün qonşu ölkələrlə ticarət münasibətləri apara bilmir. Eyni zamanda, Ermənistan regional layihələrdən kənarda qalır. Onu da bildirim ki, Ermənistan diasporun ianələri hesabına yaşayırdı. Ancaq indi diaspor məlum ianələri azaldır. Xaricdə yaşayan ermənilər tərəfindən ölkəyə göndərilən valyutanın azalması qiymət artımına səbəb olur. Təbii ki, bu hal adıçəkilən ölkənin iqtisadiyyatının zəifləməsinə gətirib çıxarır".

**Millət vəkili onu da vurğuladı ki, Ermənistanda səriştəsiz hökumət formalaşıb. Bu hökumət sayəsində Ermənistanın dünya ölkələri ilə əlaqəsi kəsilir: "Düşmən ölkədə daxili resurs, demək olar ki, yox səviyyəsindədir. Bu kimi səbəblər Ermənistan iqtisadiyyatını zəiflədir".**

*Günel CƏLİLOVA*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Format tərsliyinə görə yeni "aprel müharibəsi" qorxusu Ermənistanı bürüyür...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyi qarşısında Ermənistan artıq geri çəkilməkdən başqa çıxış yolu olmadığını getdikcə daha aydın surətdə dərk edir. Bu məqam münaqişənin dinc müstətvidə həlli istiqamətində Ermənistanın yaratmaq istədiyi maneələrə təşkil edilən güclü müqavimət fonunda özünü daha aydın büruzə verdi.**

Belə ki, İrəvanın danışıqlar formatını dəyişmək cəhdləri birmənalı şəkildə iflasa uğradı.

Məsələyə növbəti dəfə münasibət bildirən Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunda çıxışı zamanı beynəlxalq ictimaiyyətin diqqətinə bir daha çatdırdı ki, İrəvanın bu istiqamətdə addımları qəbuledilməzdir. Dövlət başçısı bildirib ki, status-kvo qəbuledilməzdir, onun dəyişdirilməsi üçün isə Ermənistan Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmalıdır: "Biz görürük ki, Ermənistan hökuməti bu gün danışıqlar formatını dəyişdirməyə cəhd edir. Bu isə qəbuledilməzdir. Beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupunun həmsədrləri də bunu bəyan edirlər". İlham Əliyev bu formatın artıq uzun illərdir mövcud olduğunu bildirib və bunu dəyişmək cəhdini danışıqlar prosesini bloklamaq cəhdi kimi səciyyələndirib. Vurğulayıb ki, danışıqlar yalnız danışıqlar xatirinə aparılmamalıdır.

Ermənistanda hesab edirlər ki, Nikol Paşinyan iqtidarı bunlardan ciddi nəticə çıxarmalıdır, əks-təqdirdə Ermənistanı silkələyəcək savaşın başlanması qaçılmaz sayılır. Erməni politoloq Qrant Məlik-Şahnazaryan bununla bağlı bildirir: "İrəvanın atdığı addımlar səbəbindən Azərbaycan və Ermənistan arasında müharibə hazırlığı son mərhələdədir". Şahnazaryanın fikrincə, Paşinyan Dağlıq Qarabağın danışıqlarda tərəf kimi iştirakında israr etsə, savaş istənilən an başlana bilər: "Bakıda Paşinyanın niyyətini əla anlayırlar. Paşinyan bu hərəkəti ilə öz nüfuzunu yüksəltməyə çalışır. Lakin onun davranışları Qarabağda müharibəyə aparır. Baş verənlər müharibənin başlanması üçün siyasi tarazlığın yarandığını və hazırlıq işlərinin son mərhələsinə daxil olunduğunu göstərir". Digər erməni politoloq Aleksandr İskəndəryan da hesab edir ki, Paşinyanın bu qəbul edilməyən mövqeyi üzündən Qarabağda 2016-cı ilin "aprel müharibəsi" ssenarisinin təkrar olunması istisna deyil: "Genişmiqyaslı müharibə bəlkə də olmayacaq, çünki bu, dağıdıcı nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, münaqişəni müharibə ssenarisi ilə həll etmək çətindir. Çünki regionda müxtəlif güclərin maraqları var. Lakin "aprel müharibəsi" ssenarisinin təkrarlanacağını istisna etmirəm".

Ermənistanın keçmiş iqtidar partiyası Respublikaçıların sədr müavini Armen Aşotyan da bildirib ki, "aprel müharibəsi"nin təkrarlanması tamamilə gözləniləndir: "Paşinyan Qarabağda ilk dəfə faktiki olaraq keçmiş hakimiyyət, yəni Serj Sarkisyan və Edvard Nalbandyan tərəfindən aparılan əsas prinsiplər danışıqlarına istinad edib və bundan imtina etməyib. Lakin belə vəziyyət bizi savaşa aparır. Əgər sülhün son formasının necə olacağını cəmiyyət bilmirsə, onu sülhə hazırlamaq mümkün deyil. Ermənistan şərti aprel-2 hərbi əməliyyatlarının bərpasına hazır olmalıdır".

Rus ekspert Modest Kolerov da İrəvanın atdığı addımlardan geri çəkilməməsinin savaşı tətiklədiyini etiraf edir: "ATƏT-in Minsk Qrupu ilk dəfə keçmiş iqtidarın da daxil olduğu Ermənistan hakimiyyətinin indiyədək danışıqlar apardığı "Madrid prinsipləri" haqqında bəyanat verib. Minsk Qrupu yeni bir şey elan etməyib. Yeni olan Minsk Qrupunun bu barədə bəyanat verməsidir. Bu, indiyədək məxfi olan bu prinsiplərin indi rəsmi olaraq tərəflərə təklif edildiyi mənasına gəlir. Bu rəsmi sənəd uzun zaman Ermənistanın keçmiş hakimiyyəti, o cümlədən onlara da məlum olan indiki hakimiyyəti ilə birlikdə gizli saxlanırdı". Onun sözlərinə görə, bu prinsiplər əsasında danışıqlar aparılması Ermənistan və qondarma quruma, həmçinin Ermənistanın maraqlarına əlverişli deyil. Lakin İrəvanın bundan qaçması Azərbaycanın ərazilərini azad etməsi üçün savaşa başlamasına da rəvac verir: "2016-cı il aprel döyüşləri danışıqlar prosesi dayandırılmadan başlamışdı. Yeni danışıqlar prosesinin varlığı hərbi əməliyyatların başlamayacağına zəmanət vermir. Ermənistanı müharibədən xilas edən, qoruyan yeganə amil ordudur. Amma bu ordu indi Azərbaycan qarşısında zəifdir və bunu Bakıda da yaxşı bilirlər".

Digər rus ekspert İqor Korotçenko isə vurğulayır ki, həqiqətən də İrəvanın Bakının gücündən nəticə çıxarması çox önəmlidir. O vurğulayır ki, son illərdə Azərbaycan hərbi imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Bu, ilk növbədə ordunun müasir hərbi texnika, radioelektron mübarizə vasitələri, pilotsuz uçuş aparatları, bir sözlə, müasir ordunun görünüşünü müəyyən edən bütün komplekslərlə təmin olunması ilə izah edilir. Onun sözlərinə görə, bu baxımdan Azərbaycan Silahlı Qüvvələrinin bu gün etdiyi böyük hərbi manevrlər ölkənin milli maraqlarını müdafiə etməyə hazır olduğunu bir daha nümayiş etdirmək, mövcud təhdid altında silahlı qüvvələrin hərəkətlərini uyğunlaşdırmaq, Azərbaycan Silahlı Qüvvələrinin postsovet məkanında ən yaxşı ordulardan biri kimi yüksək beynəlxalq nüfuzunu bir daha təsdiqləmək üçün nəzərdə tutulub.

Beynəlxalq münaqişələr üzrə digər rus ekspert Yevgeni Mixaylov da bu ordunun İrəvan üçün çox açıq mesajlar verdyini vurğulayır. O, bu mənada Azərbaycanın genişmiqyaslı hərbi təlimlər keçirməsinin təəccüblü hal olmadığını qeyd edib: "Bu təlimlər ilk növbədə Azərbaycan Silahlı Qüvvələrinin effektivliyini, döyüş qabiliyyətini göstərmək, bütün hissələrin qarşılıqlı fəaliyyətini yoxlamaq üçün nəzərdə tutulub. Bu hərbi manevrlərin bir sıra ekspertlərin fikrincə hücum təlimləri kimi görünməsi məsələsi isə təəccüblü deyil. Şəxsən mənim fikrimcə, Azərbaycanla Ermənistan arasında danışıqlar dövrü başa çatır. Söhbət sülh danışıqlarından gedir. İrəvan bu baxımdan çox gərgindir, çünki hazırda Azərbaycanın bu qədər güclü olması və "yazıq" Ermənistana hücum etmək istəməsindən narahatdır. İrəvanın hətta qısa hərbi toqquşmalar şəraitində belə işğal edilmiş əraziləri saxlamaq şansı yoxdur. Azərbaycan sadəcə bir neçə gün ərzində ərazilərini hərb yolu ilə qaytarmağa qadirdir".

Digər rus analitik və tarixçi Oleq Kuznetsov da eyni mövqedən çıxış edərək bildirir ki, İrəvanın son gedişləri Bakıya savaşdan başqa çıxış yolu qoymur. O, Ermənistan Təhlükəsizlik Şurasının iclasının Azərbaycanın işğal altında saxlanan Xankəndi şəhərində keçirilməsini buna son sübut kimi göstərib. Politoloqun sözlərinə görə, Paşinyan var gücü ilə özünü təsdiq etməyə, danışıqlar prosesindəki təşəbbüslərini dahi bir yenilik kimi göstərməyə çalışır:

"İndi biz şahid oluruq ki, Ermənistanın parlament və hökumətdən sonra üçüncü dərəcəli mühüm orqanı olan Təhlükəsizlik Şurasının iclası birdən-birə beynəlxalq təşkilatlar tərəfindən tanınan Ermənistanın sərhədlərindən kənarda - Xankəndidə keçirilib. Bu fakt özü təsdiq edir ki, Xankəndi rejimi müstəqil deyil, Paşinyan bu rejimə daha yüksək status verməyə çalışdıqca, bu, əks effekt yaradır. Bütün dünyaya nümayiş olunur ki, zəbt olunmuş ərazilərdə formalaşmış "hökumət" İrəvandan tamamilə asılıdır". Ekspertin sözlərinə görə, məhz buna görə Ermənistan hökuməti faktiki olaraq işğalçı hökumətdir: "Bununla da Paşinyan iclası Xankəndidə keçirməklə özü öz evini yıxdı. Çünki Xankəndi üçün eyni hüquqlu statusu tələb etsə də, bu addımı ilə onun İrəvandan tam asılı olduğunu nümayiş etdirdi. Bununla bağlı mənim iki cür izahım var: birinci, ya Paşinyan özü-özünü aldadır və bunun nəticəsində özü də istəmədən özünü axmaq vəziyyətə qoyur. İkinci versiya odur ki, biz indi çox dəqiqliklə hazırlanmış məlumat təxribatının şahidi oluruq. Bu təxribat Bakıya qarşı yox, erməni xalqına qarşı istiqamətlənib. Bundan sonra Paşinyanın rahatlıqla "Xankəndi rejiminin statusunu qaldırmaq istədim, amma nəsə düz getmədi və fiaskoya uğradıq" deyə biləcək.

Bir sözlə, rəhmətlik rus baş nazir Viktor Çernomırdinin gözəl bir ifadəsini yada salmaq lazımdır: "Bir dəfə yaxşı iş görmək istədik, həmişəki kimi alındı". Zaman Ermənistana qarşı işləyir. Çünki işğal gündən-günə onun resurslarını məhv edir. Və bu proses qarşısıalınmaz bir prosesdir. Paşinyan vaxtda uduzur və öz mənasız hərəkətləri ilə özünü seytnota salır. Əgər o konkret danışsaydı, siyasi və mənəvi planda bəzi uğurlar əldə edə bilərdi. Amma demaqoqluğu ucbatından özünü qeyri-səmimi partnyor kimi göstərib. Və bu təkcə rəsmi Bakı üçün yox, həm də Minsk Qrupu üçün belədir. Bu onun ən kobud səhvidir. Çünki beynəlxalq vasitəçilərin səbri tükənmək üzrədir".

Baş verənlərə rusiyalı filosof və ideoloq Aleksandr Duqinin yanaşması da xüsusi maraq doğurur: "Hakimiyyətə gələndən sonra Paşinyan Rusiyaya və Azərbaycana münasibətdə kifayət qədər narahat jestlər nümayiş etdirdi, o cümlədən Serj Sarkisyanın dönəmində Dağlıq Qarabağ ətrafında 5 işğal edilmiş rayonun qaytarılmasıyla bağlı əldə edilmiş razılaşmanı icra etmək istəmədi. İndi situasiya dəyişə bilər. Rusiya üçün vacib olan konflikt tərəflərinin bir-birilə hesab çürütməsi yox, sülh əldə etməsidir. Paşinyan rasional və məsuliyyətli yanaşma nümayiş etdirsə, bunu alqışlamaq və dəstəkləmək lazımdır. Hər vasitə ilə Azərbaycan və Ermənistan rəhbərlərinin ictimai səviyyədə görüşünü dəstəkləmək və hazırlamaq lazımdır. Xalqlara anlatmaq lazımdır ki, sülh mümkündür. Bəli, şərtlər çox çətindir. Bu ən çətin geosiyasi konfliktlərdən biri olsa da, burada sülh mümkündür. Bunun əksi savaşdır və bu savaşın əslində nə ilə nəticələnəcəyini Ermənistanda da yaxşı anlayırlar. Bu səbəbdən yaxış olardı ki, irəvan Bakının səbrini daha çox sınamasın".

Beləliklə, bütün bu qeyd edilənlər aydın göstərir ki, İrəvan danışıqlar formatı və digər məqamlar üzrə qəbuledilməz mövqeyindən geri çəkilməsə, Azərbaycan münaqişənin güc yolu ilə həllinə getməli olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Rusiyanın "Novoye İzvestiye" saytında Azərbaycandan Gürcüstana qaçan, daha sonra Fransadan siyasi sığınacaq alan Vidadi İsgəndərli ilə bağlı material yayımlanıb. Məqalədə qeyd olunur ki, V.İsgəndərli "YouTube"da öz aqressiv və təxribat xarakterli iddiaları ilə hamını təəccübləndirməyə davam edir.**

# Vidadi İsgəndərlini Robert Köçəryanın xalası oğlu ilə bağlayan nədir?

***Bəhruz Quliyev:** "Biz onsuz da bu faktları bilirdik və dəfələrlə səsləndirmişik"*



*"Buyurun, onun R.Köçəryanın yaxın qohumu ilə əlaqədə olduğunu artıq Rusiya KİV-ləri yazır"*

Ən maraqlısı isə budur ki, Rusiya KİV-i Vidadi İsgəndərlinin Ermənistanla sıx əlaqələrini üzə çıxaran dəlillər ortaya qoyub. Qeyd edilir ki, İsgəndərli sonuncu çıxışlarından birində Qarabağ münaqişəsi ilə bağlı versiyalarını mənbələri-Ermənistanın eks-prezidenti R.Köçəryanın xalası oğlu Sergey Akopyanla "Mıtişinskaya" vəkillər kollegiyasının Moska dairəsi üzrə eks-rəhbəri Araz Mirzabekyana əsasən irəli sürüb. Mirzabekyan, Akopyan və İsgəndərli 1988-ci ildə Xarkov Ədliyyə İnstitutundan məzun olublar. Onlar nəinki eyni qrupda təhsil alıblar, həmçinin, eyni yataqxanada yaşayıblar. V.İsgəndərli bu institut dostları ilə əlaqəsini pozmayaraq, onlarla müzakirələr aparıb və görünür ki, öz üzərində onların təsirini və nüfuzunu hiss edib.

Rusiya KİV-i qeyd edir ki, müxalif fikirdə olmaq, müntəzəm olaraq Azərbaycana qarşı nifrət bəsləmək onun əleyhinə dividendlər gətirir: "Hətta demokratik Gürcüstanda İsgəndərlinin fəaliyyətinin bu ölkənin standartları üçün qəbuledilməz olduğu bildirilib. Həm Qafqazda, həm də Zaqafqaziyada Vidadi İsgəndərli kimi ölkəsini və xalqını təhqir etmək qəbuledilməz sayılır".

Rusiya KİV-nin ortaya qoyduğu bu dəlil V.İsgəndərlinin sırf ermənilərin sifarişini həyata keçirdiyini sübut edirmi?

**"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev qəzetimizə açıqlamasında V.İsgəndərlinin ermənilərin maraqlarına qulluq etməsi ilə bağlı kifayət qədər faktın olduğunu bildirdi:** "Həmin adam dəfələrlə öz açıqlamaları vasitəsilə sübut edib ki, ermənilərə işləyir. Çünki damarında azərbaycanlı qanı axan heç bir kəs deməz ki, sabah müharibə başlasa, mən ermənilərə qarşı vuruşmayacağam, silahı hazırkı iqtidara çevirəcəm. Buna müxaliflik demək olmaz. Bu artıq Vətənini satmaq anlamına gəlir. Mən öz videomüraciətimdə də demişəm ki, bu adam, faktiki olaraq, missiya həyata keçirir. Ermənistanın xüsusi xidmət orqanlarının sifarişlərini icra edir. Biz onsuz da bu faktları bilirdik və dəfələrlə səsləndirmişik. Amma onlar cavabında deyirdilər ki, biz iqtidarın adamları olduğumuz üçün belə danışırıq.

Buyurun, onun R.Köçəryanın yaxın qohumu ilə əlaqədə olduğunu artıq Rusiya KİV-ləri yazır. V.İsgəndərli kimilərin həyat yaşamı bundan ibarətdir. Dediyiniz məsələni isə V.İsgəndərlinin ermənilərlə əlbir fəaliyyətinin daha bir sübutu saya bilərik".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanın sabiq müdafiə naziri Səfər Əbiyevin mediada yeni fotoları yayılıb. Bu xəbər mediada və sosial şəbəkələrdə maraqla qarşılanıb. Çünki Səfər Əbiyev vəzifəsi ilə vidalaşandan sonra, demək olar ki, mediada görünməyib. Onun həm də maraqlı bir mövzu ilə bağlı cəmiyyətə təqdim olunması da məsələyə diqqəti daha da fokuslayıb.**

*"Fuad kimi vətənpərvər jurnalist Qurban Məmmədov kimi təxribatçı ilə eyni efiri bölüşməməlidir"*

# Səfər Əbiyev-Qurban Məmmədov-Fuad Abbasov üçlüyündə suallar doğuran mətləb...

***Mirkazım Seyidov:** "İzlədikdə məlum olur ki, onların başlıca istəyi Rusiyadakı soydaşlarımızı..."*

Söhbət sabiq müdafiə nazirinin hazırda Bakıda olan jurnalist Fuad Abbasova mükafat verməsi ilə bağlı yayılan xəbər və onların birgə fotolarının sosial şəbəkələr vasitəsilə paylaşılmasından gedir. Xatırladaq ki, Fuad Abbasov cari ilin fevral ayında çeçenlərlə azərbaycanlılar arasında Moskva şəhərində yaranmış konfliktin müsbət yöndə həlli üçün daha çox fəallıq göstərib. Həmin hadisələr təzə qızışanda F.Abbassov sosial şəbəkələrdə özünə məxsus səhifələr vasitəsilə həm çeçenlərə, həm də azərbaycanlılara müraciət edərək bildirmişdi ki, baş verənlər təxribatdır, məqsəd isə hər iki xalqı bir-birinə düşmən olmağa yönləndirməkdir. F.Abbasov baş verənlərə səbrlə yanaşmağı, iki xalqın dostluq, qardaşlıq videolarını çəkərək yaymağı xahiş etmişdi. Bu çağırışdan sonra Rusiyanın hər yerində yaşayan azərbaycanlılar və çeçenlər bir süfrə arxasına toplaşaraq bəyanatlar yaydılar.

Məlum olub ki, "Dədə Qorqud" Milli Fondunun və "Azərbaycan Dünyası" beynəlxalq jurnalının Ağsaqqallar Şurası yaranmış gərginliyin sakitləşdirilməsi, iki qardaş xalq arasında dostluq münasibətlərinin daha da dərinləşməsi yönündə göstərdiyi fəallığa görə Fuad Abbasovun "Vətən Övladı" ordeni ilə təltif edilməsinə qərar verib.

Qərarı əsas tutaraq Fondun rəhbəri Eldar İsmayılov və üzvləri - Səfər Əbiyev, Namiq Əliyev, Sakit Məmmədov ordeni təqdim etmək üçün Fuad Abbasovla Bakıda görüşüblər. "Vətən Övladı" ordeni təntənəli surətdə Fuad Abbasova təqdim edilib.

Qeyd edək ki, Səfər Əbiyevin Fuad Abbasovla birgə yayılan fotosuna münasibət heç də birmənalı olmayıb. Sosial şəbəkələrdə hətta bu görüşə təəccüblə yanaşanlar da olub. Bəzi sosial şəbəkə istifadəçiləri isə F.Abbasovun tez-tez xaricdən yayımlanan və Azərbaycan hakimiyyətinə qarşı olduqca aqressiv mövqe tutan hüquqşünas Qurban Məmmədova məxsus internet televiziyasında görünməsini, orada ekspert qismində şərhlər verməsini əsas gətirərək, Qurban Məmmədov-Fuad



Abbasov-Səfər Əbiyev üçbucağını cızıb, bunun çox düşündürücü olduğunu bildiriblər.

**Mövzu ilə bağlı qəzetimizlə fikirlərini bölüşən, Rusiya və Azərbaycan dövlətlərinin ali mükafatlarına layiq görülmüş diaspor fəalı Mirkazım Seyidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, kimin-kimə mükafat verməsi, əslində, o qədər də önəmli deyil:** "Yəqin ki, Səfər Əbiyevin uzun müddət mediada görünməməsi belə ajiotaj yaradıb. Jurnalist F.Abbasova gəldikdə isə, son proseslərdə onunla yanaşı, başqa diaspor fəallarının da rolu az olmayıb. Biz hər zaman Azərbaycanın mənafeyinin qorunması istiqamətində çalışmışıq, bu gün də o istiqamət üzrə hərəkət edirik. Görünür, F.Abbasov jurnalist olduğu üçün, gördüyü işləri cəmiyyətə daha dolğun təqdim etməyi bacarıb. İstənilən halda, biz buna sevinirik. Amma dediyiniz üçbucağın cızılmasına gərək bizim diaspor fəallarımızın özləri şərait yaratmaya. Xaricdən bəzi blogerlərin ölkəmizin dəyərlərini təhqir etdiyini görürük. İzlədikdə məlum olur ki, onların başlıca istəyi Rusiyadakı soydaşlarımızı qarmağa keçirib, onlardan pul qoparmağa hesablanıb. Rusiyada olan diaspor fəallarımız Azərbaycan dövlətinin maraqlarını qorumaq istəyirlərsə, o cür adamlarla birgə efirə çıxmamalıdırlar. Axı jurnalist F.Abbasovla Q.Məmmədovun gördüyü iş tamam başqadır. Ona görə də Fuad kimi vətənpərvər jurnalist Q.Məmmədov kimi təxribatçı ilə eyni efiri bölüşməməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**ABŞ-İsrail-İran üçbucağında yenidən artan gərginlik neft bazarlarında özünü daha aydın şəkildə hiss etdirməyə başlayıb. Xüsusən də Vaşinqton və Təl-Əvivin İranın neft sektoruna qarşı yeni addımlar atmağa hazırlaşması qiymətlərə daha ciddi surətdə təsir edir. Yaşananlarla bağlı ABŞ-ın İran üzrə xüsusi nümayəndəsi Brayan Huk bildirib ki, ölkəsi Tehranla əməkdaşlığa görə tətbiq olunan sanksiyalarda istisnalar etmək niyyətində deyil:**

# "OPEK+"-un Bakı iclası ərəfəsində neft qiymətlərini şıçradan hadisə - ABŞ və İsrail qaçaq neft daşıyan İran gəmilərinin ovuna başlayır...




"Biz sanksiyalara aid olan istənilən fəaliyyətə sanksiyalar tətbiq edəcəyik. Biz gözlərimizi bağlamayacağıq". Dövlət katibi Mayk Pompeo isə bildirib ki, ABŞ-ın hədəfi İranın neft ixracını sıfıra qədər azaltmaq və ölkə hakimiyyətini xarici gəlir mənbələrindən məhrum etməkdir. Məhz belə bir vaxtda İsrailin baş naziri Benyamin Netanyahu İran tankerlərini mühasirəyə alacaqlarını və bununla Tehranın neft qaçaqmalçılığına imkan verməyəcəklərini deyib. Halbuki, İran tankerlərlə neft daşınmasına indi xüsusi diqqət yetirir. "Röyter" agentliyi bildirir ki, İran ABŞ sanksiyalarından yayınmaq üçün məxfi şəkildə köhnə tankerlərin axtarışı ilə məşğul olur: "İranda təxminən 50 tanker var. Tehran bu gəmilərdən təkcə daşıma üçün yox, həm də neftin saxlanması üçün istifadə edir. Belə ki, quruda neftin saxlanması imkanları məhdud səviyyədədir. Tehran köhnə tankerlər üçün, xüsusilə Vyetnam və Yunanıstana müraciət edir".

Belə vəziyyətdə İsrailin İran tankerlərinə qarşı hərbi gücdən istifadəni gündəmə gətirməsi vəziyyəti daha da çətinləşdirir. Düzdür, İran artıq bu hədəyə cavab verib. İranın müdafiə naziri Əmir Hatəmi bildirib ki, İsrail Hərbi Dəniz Qüvvələri İranın neft ticarətinə mane olmağa cəhd etsə, İran buna sərt cavab verəcək. O, İran neft tankerlərinin qarşısının alınmasının soyğunçuluq və beynəlxalq təhlükəsizliyə təhdid kimi dəyərləndiriləcəyini bildirib: "Bu baş versə, İran sərt cavab verəcək. Bizim ölkə müqavimət göstərmək üçün kifayət qədər imkana sahibdir. Dünya ictimaiyyəti İsrailin bu addımlarını qəbul etməyəcək". Tərəflər arasında bu yanaşma indidən neft bazarına təsir edir.

Belə ki, Londonun ICE birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,20 dollar artaraq 66,87 dollar, Nyu-Yorkun NYMEX birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,31 dollar bahalaşaraq 57,18 dollar təşkil edib. Azərbaycan neftinin də qiyməti bahalaşır. "Azeri Light" markalı neftin bir barrelinin qiyməti artıq 68 dollara çatır. Bu durumda ABŞ-ın Enerji İnformasiya Administrasiyası neft qiymətinin daha sürətlə arta biləcəyini bəyan edib. Bundan başqa, qurum Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEK) üzv və qeyri-OPEK ölkələrinin addımlarının da neft qiymətlərinin yüksəlməsinə təsir etdiyini bildirir: "Fevralda qlobal neft ehtiyatları gündəlik orta hesabla 1,4 milyon barrel azalıb. Bu, 2017-ci ildən indiyədək ən böyük aylıq azalmadır. Neft İxrac Edən Ölkələr Təşkilatına üzv və qeyri-OPEK ölkələrinin bu ilin ilk yarısı üçün qüvvədə olan xam neft istehsalının azaldılmasına dair sazişin müddətini artıracaqları, bunun ilin ikinci yarısını da əhatə edəcəyi gözlənir. Bu da qiymətlərə təsir edir".

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol da bu fikirdədir ki, yaranmış vəziyyətdə qiymətlər artacaq. O bildirib ki, neftin qiyməti hazırda orta hesabla 65 dollar ətrafında dəyişir: "Enerji sektoruna təsir edən digər faktor isə geosiyasi gərginlikdir. ABŞ ilə Çin arasında ticari mübahisələr, Yaxın Şərq və Venesueladakı son vəziyyət, Avropada "Brexit"lə bağlı inkişaflar və geosiyasi gərginlik enerji sektoruna ciddi şəkildə təsir edə bilər. Bu proseslər neft bazarına da təsirsiz ötüşməyəcək".

Dünyanın ən böyük enerji treydinq şirkətlərindən olan "Vitol Group"un icraçı direktoru Russell Hardi də qiymətlərin artacağını bildirir: "Hasilatın azaldılması, eləcə də ABŞ-ın İran və Venesuelaya qarşı sanksiyaları fonunda neft emalı zavodlarının ehtiyac duyduqları həcmdə xam neftlə təchiz edilməməsi neftin qiymətində artıma səbəb olacaq. Həmçinin İrana qarşı artan təzyiqlər də qiymətlərə indi daha çox təsir edir". Bütün bu məsələlər isə Bakıda təzliklə əsas müzakirə mövzularından birinə çevriləcək. Qeyd edək ki, martın 17-18-də Bakıda OPEK və qeyri-OPEK ölkələrinin Müştərək Texniki Komissiyasının 27-ci və Nazirlərin Birgə Monitorinq Komitəsinin 13-cü iclasları keçiriləcək. OPEK-in baş katibi Məhəmməd Barkindo bildirib ki, OPEK və partnyorları bazarda neft həcminin artımının saxlanılması haqqında razılaşmanın icrasının gedişini qiymətləndirmək üçün məhz Azərbaycanda görüşəcək. Gözlənir ki, OPEK-ə üzv ölkələr və Rusiya hasilatın gündəlik 1,2 milyon barrel ixtisarı haqqında razılaşmanı ən azı bir neçə ay müddətinə uzadacaq. Məhəmməd Barkindo bununla bağlı qeyd edib: "Bakıda görüşün nəticələri qərarın qəbul olunması zamanı nəzərə alınacaq. Hər şey məlumatlardan asılıdır. Onlarla tanış olmaq lazımdır". Bütün bunlar neft qiymətində qarşıdakı günlər ərzində bahalaşmanın davam edəcəyini göstərir. Hasilatçıların, o cümlədən də Azərbaycanın bu fonda neft gəlirlərinin əhəmiyyətli dərəcədə çoxalacağı isə əsas proqnozlar sırasındadır.

***Nahid SALAYEV***

**Məlum olduğu kimi, martın 10-da Efiopiyada "Boeing 737 Max 8" sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində 157 nəfər həlak olub. "Boeing 737 Max" təyyarəsinin insan ölümünə səbəb olduğu son beş ayda ikinci qəzasıdır. Bundan əvvəl oktyabr ayında İndoneziya hava şirkətinə məxsus bu təyyarə modelinin qəzaya uğraması nəticəsində 189 nəfər həlak olub.**

*"Tələsik hansısa qərar vermək doğru olmaz"*

# Dünya "Boeing"dən imtina edir, Azərbaycanın 10 təyyarəyə müqaviləsi var, ekspert gözləməyi tövsiyə edir...

## *Fikrət Yusifov: "Boeing" təyyarələrinin alınması ilə bağlı Azərbaycan gözləmə mövqeyi tutsa, daha məqsədəuyğun olar"*




Efiopiyada baş verən qəzadan sonra bir sıra ölkələr "Boeing" təyyarələri ilə uçuşları dayandırıblar. Belə ki, Efiopiya başda olmaqla Çin, Cənubi Koreya, Malaziya, Böyük Britaniya, İndoneziya və Sinqapur da "Boeing" təyyarələrindən istifadəni dayandırıblar. Bu arada ABŞ-da da "Boeing 737 MAX 8" və "MAX 9" tipli sərnişin təyyarələrinin uçuşları dayandırılıb. ABŞ Prezidenti Donald Trampın sözlərinə görə, hazırda havada olan təyyarələrin istisması yerə endikdən sonra dayandırılacaq.

Maraqlıdır ki, dünyanın bir sıra ölkələri sözügedən hava nəqliyyatından imtina etdiyi halda, Azərbaycan bir neçə "Boeing" təyyarəsini almaq istəyir. Azərbaycan Hava Yolları Şirkətinin prezidenti Cahangir Əsgərov yeni təyyarələrin alınacağını deyib: "Bu ilin sonundan etibarən Azərbaycana üç il ərzində, ümumilikdə, 10 ədəd "Boeing 737 MAX 8" tipli təyyarə gətiriləcək".

Onun sözlərinə görə, "Boeing 737 MAX 8" təyyarələrinin qəzaya uğraması ilə əlaqədar AZAL "Boeing" korporasiyası ilə sıx əlaqə saxlayır: "Boeing 737 MAX 8" hava gəmiləri ilə baş verən iki aviasiya qəzasının təhlili nəticəsində bir çox oxşar məqamlar müəyyən edilib - hər iki təyyarə uçuşdan bir neçə dəqiqə sonra qəzaya uğrayıb. Hadisələrin səbəblərinin ilkin versiyası laynerlərin proqram təminatında ehtimal olunan nasazlıqdır".

Cənab Əsgərov onu da qeyd edib ki, yeni təyyarənin proqram təminatında hər hansı qüsur aşkar edildikdə, həmin qüsurlar Azərbaycana çatdırılma zamanı tamamilə aradan qaldırılacaq.

Maraqlıdır, sözügedən təyyarələrlə bağlı yaranan hazırkı vəziyyətdə Azərbaycan nə etməlidir? Azərbaycan da analoji addımlar atmalıdır, yoxsa həmin təyyarələrin yoxlanılmasına nəzarəti gücləndirməlidir?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, "Boeing" təyyarələrinin alınması ilə bağlı Azərbaycan gözləmə mövqeyi tutsa, daha məqsədəuyğun olar:** "Son beş ayda 2 "Boeing" təyyarəsinin qəzaya uğraması bir sıra ölkələrin bundan imtina etməsinə gətirib çıxardı. Ən son məlumatlara görə, 30-dan çox ölkə bu təyyarələrdən imtina edib. Baxmayaraq ki, "Boeing" şirkəti ABŞ-ın ən böyük ixracatçı şirkətlərindən biridir. Hətta ABŞ belə bu təyyarələrdən istifadəyə məhdudiyyət qoyub. Verilən ilkin məlumatlar onu göstərir ki, bu təyyarələrin proqram təminatında problemlər var.

Ötən ilin oktyabrında baş verən qəzadan sonra proqram təminatında müəyyən düzəlişlər edilsə də, növbəti hadisə göstərdi ki, problem axıra qədər həll edilməyib. Ona görə də "Boeing" şirkəti hardasa 300 təyyarəni geri çağırmaqda qərarlıdır. Bu da hardasa şirkətə 5 milyard dollara başa gələcək. Ancaq başqa variant yoxdur. Azərbaycana gəldikdə isə, hesab edirəm ki, ölkəmiz gözləmə mövqeyində qalmalıdır. Çünki "Boeing" şirkəti təyyarələri geri çağırıb problemi həll edəndən sonra öz sözünü deyəcək. Etiraf edəcək ki, problem haradan qaynaqlanır. Ondan sonra Azərbaycan öz sözünü deməlidir. Nəzərə almaq lazımdır ki, dünyanın ən böyük təyyarə ixrac edən şirkətlərindən biri "Boeing"dir. O üzdən, tələsik hansısa qərar vermək doğru olmaz".

***Vidadi ORDAHALLI***

# Bakıda "leş ətinin" yeni ünvanı, iş kütləvi zəhərlənməyə çıxdı, AQTA hələ susur...

**Azərbaycanda qida təhlükəsizliyi sahəsində vəziyyətin dözülməz səviyyəyə çatdığı barədə ortaya çeşidli faktlar, dəlillər qoyulur. Ancaq təəssüflər olsun ki, bu sahəyə birbaşa cavabdeh olan Qida Təhlükəsizliyi Agentliyi adlı dövlət qurumu bu məsələlərə, ümumiyyətlə, reaksiya belə vermək istəmir.**

Mediada qurumla bağlı ilkin iddialar ondan başladı ki, Bakının "Təzə bazar" deyilən ərazisində kilosu 1 manata mal əti satılır və həmin məhsulun müştəriləri dönərxanalar, restoranlar və başqa iaşə müəssisələridir. Təqdim olunan faktlar bir media olaraq bizim də diqqətimizi çəkdi. Həmin istiqamətdə bir neçə tənqidi material yazsaq da, Qida Təhlükəsizliyi Agentliyi adlı qurumun heç tükü də yerindən tərpənmədi. Onların mətbuata açıqlama verməyə məsul olan əməkdaşı "rəsmi məlumat olan kimi mövqe bildirəcəyik" deməklə kifayətləndi. Maraqlıdır, rəsmi cavabı biz onlardan gözlədiyimiz halda, görəsən həmin qurum haradan rəsmi mövqe gözləyir?

"Leş mafiyası"nın tüğyan etdiyi növbəti ünvan kimi Bakıda "Vosmoy bazarı" kimi tanınan yer göstərilir. Aparılan araşdırmalar zamanı bəlli olur ki, satışdakı ət, yaxud balıq və toyuqların böyük hissəsi baytar nəzarətindən keçmir, üstəlik, təmizliyə, ətin satış və saxlama qaydalarına riayət edilmir.

Avtobus dayanacağından beşmərtəbəli binalara qədər uzanan, insan kütləsinin qaynaşdığı küçə boyu piştaxta arxasında, arabalarda, yaxud yerə sərilmiş kağız torbaların üstündə ət, mal baş-ayağı, balıq, yaxud toyuq satışı bu bazarda adi mənzərədir.

Satıcılar iddia edirlər ki, ət hər gün tezdən Bakı kəndlərində kəsilərək gətirilir, sadəcə, "yer pulu ucuz olduğundan" mal ətinin kilosunu 6, balığı, növündən asılı olaraq, 4-7, "kənd toyuğu"nu isə 5 manatdan təklif edirlər. Təklif edilən qiymətlərdən də görünür ki, onlar ətin real bazar qiymətindən çox ucuzdur. Deməli, burada hansısa müəmma var və bu heç də yer pulunun aşağı olması ilə izah edilə bilməz. Bir nəticə çıxarmaq olar, belə ucuz qiymətə satılan ətlərin hamısı mənşəyi məlum olmayandır.

Artıq bu vəziyyət elə həddə çatıb ki, məhz mənşəyi bəlli olmayan ətlərin satışı və həmin məhsulları satan yerlərə nəzarətin lazımi səviyyədə qurulmaması səbəbindən kütləvi zəhərlənmə halları baş verir. Konkret fakta müraciət edək.




Bakının Nərimanov rayonunda, Əhməd Rəcəbli küçəsi 21 ünvanında yerləşən "Köz dönər" kafesində dönər yeyən 7 nəfər zəhərlənmə diaqnozu ilə Kliniki Tibbi Mərkəzə aparılıb. Onların universitet tələbələri olduğu bildirilir. Tələbələr dərsdən sonra birlikdə dönər yeməyə gediblər. Faktı Səhiyyə Nazirliyinin mətbuat katibi Pərviz Abubəkirov təsdiqləyib. P.Abubəkirov deyib ki, zəhərlənənlərdən ikisi Ə.Qarayev adına 2 saylı uşaq xəstəxanasına köçürülüb.

Göründüyü kimi, vəziyyət çox kritikdir. "Leş mafiyası"nın törətdiyi fəsadlar artıq kütləvi şəkildə insan həyatlarını almağa yaxınlaşıb. Hesab edirik ki, bu sahədə Qida Təhlükəsizliyi Agentliyi media ilə sıx təmasda işləməsə, vəziyyət daha katostrofik ola bilər. Bunun üçün körpü rolunda KİV və ictimai təşkilatlarla əlaqələrdən istifadə edilməlidir. Kollegiya yaradıb, orada KİV və ictimaiyyət nümayəndələrinin təmsil olunması vacibdir. Rayon və kəndlərdən əldə etdiyimiz məlumatda bildirilir ki, ölmüş heyvanların ətinin yığılıb paytaxta aparılması heç kimə sirr deyil. Bildirilir ki, heyvanlar xəstəlikdən, qocalıb öləndə zəng vururlar, leş yığanlar gəlir və ölmüş, murdar olmuş cəsədi götürüb aparırlar.

Hesab edirik ki, bu cür işbazların açıq fəaliyyət göstərməsi birbaşa ölkənin qida təhlükəsizliyinə təhdid yaradır. Bu istiqamətdə kompleks tədbirlər görülməlidir. Yalnız leş əti Bakıda satanlar yox, eyni zamanda, onu alıb əhaliyə hər hansı formada satanlar da məsuliyyətə cəlb olunmalıdırlar. Qida Təhlükəsizliyi Agentliyindən ciddi fəaliyyət gözləmək ümidi ilə…

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda Kök-hüceyrə Mərkəzi - Əhliman Əmiraslanovun təklifinin mahiyyəti...

**"Azərbaycanda artıq Kök-hüceyrə Mərkəzi yaradılmalıdır". Bunu akademik, parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib. O qeyd edib ki, belə bir mərkəzə çox ciddi ehtiyac var: "Artıq bu məsələdən ölkə rəhbərinin də xəbəri var. Ona görə hesab edirik ki, yaxın gələcəkdə bu məsələ həllini tapacaq. Çünki Azərbaycanda artıq belə bir mərkəzə ciddi ehtiyac duyulur.**



Mənə dedilər ki, təkcə İstanbulda 40-a yaxın kök-hüceyrə mərkəzləri var. Odur ki, bizdə də belə bir mərkəz mütləq olmalıdır".

## *Adil Qeybulla: "Ölkədə Kök-hüceyrə Mərkəzinin yaradılması həm tibbin, həm də əhalinin xeyrinə olar"*

Ekspertlər də ölkədə Kök-hüceyrə Mərkəzi yaradılmasının vacib olduğunu düşünürlər.

**Professor, tibbi ekspert Adil Qeybulla "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ölkədə Kök-hüceyrə Mərkəzinin yaradılması həm tibbin, həm də əhalinin xeyrinə olar.** Bu gün insanlar Kök-hüceyrə Mərkəzində fayda görürsə, həmin mərkəzin ölkəmizdə də yaradılması vacibdir. Çünki insanlar bu qurumdan yalnız faydalana bilər: "İnkişaf etmiş ölkələrdə Kök-hüceyrə Mərkəzi mövcuddür. Əslində, bizdə də nə zamansa adıçəkilən mərkəz yaradılmalıdır.

## *"20-30 il sonra kök-hüceyrələr tibb elmində..."*

Çünki Kök-hüceyrə Mərkəzinə ehtiyac var. Mərkəz yaradılmazdan öncə bu sahə ilə məşğul olan mütəxəssislər hazırlanmalıdır. Belə bir mərkəz yaradılarsa, çox güman ki, özəl sektor olacaq".

Həmsöhbətimiz onu da əlavə etdi ki, mərkəz yaradılmazdan öncə dünya təcrübəsinə nəzər yetirmək lazımdır. Mərkəzin necə fəaliyyət göstərdiyi araşdırılmalıdır.

Ekspertin sözlərinə görə, kök-hüceyrələr orqanın, toxumaların bütün sistemini daşıyır: "Artıq sübuta yetirilib ki, kök-hüceyrələr vasitəsilə onkoloji xəstəliklərin, anadangəlmə uşaq iflicinin, beyin xəstəliklərinin müalicəsində müsbət nəticələr əldə olunur.

Bu gün bütün dünya ölkələrində kök-hüceyrələrdən çətin xəstəliklərin müalicəsində istifadə olunur. 20-30 il sonra kök-hüceyrələr tibb elmində daha da inkişaf edəcək".

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması

**Ermənistan Silahlı Qüvvələrinin hərbi təcavüzü nəticəsində torpaqlarının 20 faizi işğala məruz qalan Azərbaycan həm də tarixin bütün dövrləri və bütün dövlətlər üçün ən ağrılı məsələ olan qaçqın və məcburi köçkünlər problemi ilə üz-üzədir. Amma Azərbaycan dövləti özünün iqtisadi yüksəlişinə güvənərək qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində lazımi addımları atır.**

Ötən illər ərzində məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, həmçinin, onlara güzəşt və imtiyazların verilməsinə yönəlik normativ-hüquqi aktlar qəbul edilib. Qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşması istiqamətində dövlət tərəfindən humanist addımlar atılır.

Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiqlənən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilən mühüm əhəmiyyətli sənəddir.

Sözügedən sənədin qəbulu bu sahədə ciddi keyfiyyət dəyişikliklərinin əldə edilməsinə səbəb oldu. 2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə proqrama edilən əlavələr bu kateqoriyadan olan insanların yeni mənzillərlə təminatında xüsusi mövqeyi ilə seçildi. Bu sahədə mövcud problemlərin həllini sürətləndirmək məqsədilə Prezident İlham Əliyevin fevralın 21-də məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında imzaladığı sərəncam qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasında strateji əhəmiyyəti ilə diqqəti çəkir.

Məlumdur ki, Azərbaycan dövləti ən müxtəlif sferalardan olan insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində məqsədyönlü addımlar atır. Cəmiyyətin həssas insan qrupları hesab edilən qaçqın və məcburi köçkünlərə, eləcə də əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı dövlətin həyata keçirdiyi layihələr, proqramlar təqdirəlayiqdir. Azərbaycan dövləti, ümumiyyətlə, qayğıya ehtiyacı olan hər bir vətəndaşın dayağı, güvənc yeridir. Məlumdur ki, dövlət tərəfindən qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində indiyə qədər saysız addım atılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı nəticəsində qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülüb və bu işlərin növbəti dövrlərdə də davam etdirilməsi nəzərdə tutulur.

Azərbaycan dövləti hər zaman qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirib, onların qayğıları dövlət siyasətimizin prioritet məsələlərindən biridir. Məlum olduğu kimi, bir müddət əvvəl Prezident İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında fərman imzaladı. Bundan əvvəl də dövlət başçısı Qarabağ müharibəsi zamanı öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızla bağlı bir sıra fərman və sərəncamlar imzalayıb. Son 10 ildə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Həmin müddətdə qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı Prezident tərəfindən 51 fərman və sərəncam imzalanıb, "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", həmin Proqrama 2 əlavə təsdiq edilib. Dövlət büdcəsindən ayrılmış vəsait hesabına məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 3,5 dəfə artırılıb. Son 10 ildə dövlət ali məktəblərində ödənişli əsaslarla təhsil alan 8 min 700 məcburi köçkün tələbənin təhsil xərcləri dövlət büdcəsi vəsaiti hesabına ödənilib. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 3,8 milyard manat vəsait sərf edilib. Həmin vəsaitin 1,7 milyard manatı dövlət büdcəsinin, 1,4 milyard manatı Dövlət Neft Fondunun, 378 milyon manatı isə digər təşkilatların payına düşür. Hazırda bir nəfər məcburi köçkünə il ərzində xərclənən vəsaitin məbləği 1100 manat təşkil edir ki, bu da dünyanın digər münaqişə zonaları ilə müqayisədə ən yüksək göstərici olmaqla, 2003-cü ildəkinə nisbətən 9 dəfə çoxdur. Məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 15 faizədək azalıb. Son 18 il ərzində qaçqın və məcburi köçkünlər üçün respublikanın 30-dan artıq şəhər və rayonunda bütün sosial-texniki infrastruktura malik 102 müasir qəsəbə salınıb ki, bunun da 3-ü ötən il istifadəyə verilib. Ötən il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilərək istifadəyə verilib. Bu, son illər ərzində rekord göstəricidir. Evlər, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı artıq 300 minə çatır. Bu da 55 min ailə deməkdir. Ümumilikdə, bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manatdan artıq vəsait xərclənib. Görünən odur ki, dünyada Azərbaycan kimi ikinci ölkə yoxdur ki, qaçqın və məcburi köçkünlərin sosial məsələlərinə diqqət yetirsin.

Bundan başqa, Prezident İlham Əliyevin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında imzaladığı sərəncam da bu təbəqədən olan insanların sosial rifahının yüksəlməsinə səbəb olur. Onların müavinətlərinin aprelin 1-dən 50 faiz artırılması da təqdirəlayiq haldır. Təbii ki, Azərbaycan hökuməti hər zaman məcburi köçkünlərin yanında olub və onlara öz dəstəyini göstərir.

Azərbaycan dövləti sosial cəhətdən qayğıya ehtiyacı olan vətəndaşlarla da bağlı mühüm addımlar atıb. Azərbaycanda sosial müdafiə sisteminin bütün sahələrində uğurlu islahatlar həyata keçirilib və aztəminatlı ailələrə dövlət qayğısı daha da gücləndirilib. Əhalinin sosial müdafiəsinin təmin olunması istiqamətində atılan önəmli addımlardan biri də qayğıya ehtiyacı olanların mənzil-məişət şəraitinin yaxşılaşmasıdır. Məlumdur ki, Prezident İlham Əliyev bu sahəyə xüsusi diqqət və qayğı göstərir, imzalanan fərman və sərəncamlar, qəbul edilən qərarlar, iqtisadi gücü daim artan ölkəmizin fəal və məqsədyönlü siyasət kursuna malik olması sosial cəhətdən həssas əhali qruplarının etibarlı müdafiə sistemi ilə əhatə olunmasına şərait yaradıb.

Xatırladaq ki, ötən il Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi də bunun bariz nümunəsidir.

Qeyd edək ki, son illərdə 100-ə yaxın qəsəbə salınıb, 300 minə yaxın məcburi köçkün evlər və mənzillərlə təmin edilib

Onu da vurğulayaq ki, bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi olub. Bu faktlar bir daha dövlətimizin bu məsələlərə xüsusi diqqətini göstərir. Həmin ilin dekabr ayında Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün, dekabrın 27-də isə Sumqayıt şəhərində 1005 qaçqın və məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin uğurlu davamıdır. Qaçqın və məcburi köçkünlər inanırlar ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olunacaq və bu tip quruculuq işləri həmin torpaqlarda aparılacaq.

Millət vəkili Bəxtiyar Əliyev bildirib ki, Prezident İlham Əliyev Azərbaycan əhalisinin rifahının yaxşılaşmasına, o cümlədən qaçqın və məcburi köçkünlərə xüsusi diqqət göstərir, davamlı şəkildə bu istiqamətdə müvafiq fərman və sərəncamlar imzalayır: "Dövlət həmişə qaçqın və məcburi köçkünləri diqqətdə saxlayıb, onların sosial müdafiəsini gücləndirib, eyni zamanda, məcburi köçkünlər müasir tələblərə cavab verən mənzillərlə təmin edilib. Bu il də inzibati binalar, yataqxanalar, yarımçıq tikililər, məktəblər və sanatoriyalarda yerləşmiş məcburi köçkünlər üçün yeni qəsəbələr salınacaq, binalar tikiləcək və onlar mənzillə təmin ediləcəklər. Məcburi köçkünlər də Prezident İlham Əliyevin onlara göstərdiyi qayğıdan çox razıdırlar. Mən məcburi köçkün seçicilərimi qəbul edərkən onlar hər zaman dövlət başçısının siyasətini dəstəklədiklərini və Prezidentin ətrafında sıx birləşdiklərini bildirirlər.

Dövlət başçısı tək məcburi köçkünlərin deyil, eyni zamanda, əhalinin aztəminatlı təbəqələrinin də həyat şəraitinin yaxşılaşdırılması istiqamətində də silsilə işlər görür".



Sonda onu da qeyd edək ki, məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar bununla da bitmir. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu yaxınlarda "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin ayrılması haqqında" Sərəncam imzalayıb. Həmin sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği cari il aprelin 1-dən 50 faiz artırılacaq ki, bu da dövlət başçısının məcburi köçkünlərin sosial problemlərinin həllinə göstərdiyi növbəti qayğının təzahürüdür.

***Namiq QULİYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

# Bakıda "fast-food"lara nəzarət olunurmu - kütləvi zəhərlənmə təkrarlana bilər...

**İnsan həyatı üçün qidalanma hər mənada önəmlidir. İnsan hərəkət etdikcə enerji xərcləyir. İtirilən enerjini ancaq qidalanma ilə bərpa etmək olar. Məşhur bir ifadədə deyildiyi kimi, "Yemək üçün yaşamaq lazım deyil, yaşamaq üçün yemək lazımdır". Bəs insanlar yaşamaq üçün nə yeyirlər?**

*Eyyub Hüseynov: "Hazırda ölkənin qida sektoruna nəzarət yox dərəcəsindədir"*



*"Dönər, ümumiyyətlə, "fast-food" qidaları əhalinin tədricən və ya ani olaraq zəhərlənməsinə səbəb olur"*

Müasir dövrün gəncliyi çox sürətli bir həyat yaşayır. Gənclər hər zaman harasa tələsir, gecikir, hər şeyin tez alınmasını istəyirlər. Buna görə də yemək yeyərkən də tələsirlər. Ayaqüstü bir şeylər yemək bu səbəbdən ümumi bir vərdişə çevrilib.

Bu qida menyusu ölkəmizdə də yetərincə var və getdikcə də artır. Hətta paytaxt Bakının elə yerləri var ki, orada yan-yana çoxlu sayda dönər evi görmək olur. Bu da tələbatın nə qədər çox olduğunun sübutudur.

İllərdir həkimlər bu qidaların insan sağlamlığı üçün çox zərərli olduğunu desələr də, nə "fast-food" sektoru çökür, nə də bu qidanı sevənlər azalır. Səhərdən axşama kimi işləməli olan valideynlər vaxt azlığından tez-tez "fast-food"la qidalanırlar. Bu isə həm valideyn, həm də uşaqlar üçün fəsadlara səbəb olur.

"Fast-food"lar hazırlanarkən bəzən keyfiyyətsiz məhsullardan istifadə olunur. Bunlar isə bir çox ciddi xəstəliklərə - mədə və bağırsaq xərçənginin yaranmasına səbəb ola bilir.

Məlumdur ki, dönər alarkən satıcı qarşı tərəfə belə bir sual verir: "Dönər ətlə olsun, ya toyuqla?" Toyuq əti, deyəsən, ət sayılmır, ya da "ət" dedikləri nədirsə, o mal əti deyil. Müxtəlif ölkələrdən donmuş halda gətirilən və hansı heyvana məxsus olduğu bilinməyən ətlər hazırda bizə yedirilir.

Bu qidaların satıldığı məkanlarda istifadə olunan yağlar, demək olar ki, dəyişdirilmədən təkrar-təkrar istifadə olunur. Yağlar uzun müddət qaynadıldıqda onlarda kanserogen maddələr əmələ gəlir. Bu maddələr xərçəng şişi törətməyə meyilli olur.

Bu gün tələbələrin, məktəblilərin ən çox qidalandığı təam dönərdir. Dərsdən çıxanlar ayaqüstü qidalanmaq üçün dönər almalı olurlar.

Bu günlərdə 7 tələbə dönərdən zəhərlənib. Paytaxtın Nərimanov rayonunda, Əhməd Rəcəbli küçəsi 21-də yerləşən "Köz dönər" kafesində dönər yeyən 7 nəfər zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Qeyd edək ki, bu günə kimi "fast-food" qidalarından zəhərlənən, sağlamlığında problemi yaranan çoxlu sayda insan olub. Maraqlıdır, "fast-food" qidalarına necə nəzarət olunur?

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda fəaliyyət göstərən dönərxanalarda standarta uyğun olmayan dönər hazırlanır, ölkədə 15 mindən çox dönərxana fəaliyyət göstərir:** "Bu dönərxanaların çox az qismi dönər ətinin hazırlanma, saxlanma qaydalarına riayət edir. Qalan dönərxanalar standarta uyğun olmayan, təhlükəli heyvan ətlərindən dönər hazırlayır. Toyuq ətindən dönərin hazırlanması 2006-cı ildən qadağan olunsa da, hələ də bişirilib satılır: "Hazırda ölkənin qida sektoruna nəzarət yox dərəcəsindədir. Qida Təhlükəsizliyi Agentliyi yaranan zaman düşündük ki, agentlik bu sahədə yaşanan problemləri həll edəcək. Ancaq bunun əksinin şahidi olduq. Dönər, ümumiyyətlə, "fast-food" qidaları əhalinin tədricən və ya ani olaraq zəhərlənməsinə səbəb olur. Dönərxanalarda ətin yalnız üst hissəsini qızardırlar, qalan hissə isə bişməmiş satılır.

Xüsusən də dönərxanalarda ciddi problem yaşanır. Çıxış yolu dönərxanaları bağlamaq deyil, bu sahədə keyfiyyəti artırmaq lazımdır".

Həmsöhbətimiz onu da bildirdi ki, dönərlər bir çox Avropa ölkələrində oturaq yeməkdir: "Yəni dönərxanalara gedirsən, onu qabda gətirirlər, oturub yeyirsən. Amma Azərbaycanda elə deyil. Biz hazırda standartlara uyğun olmayan dönərləri təhlükəli hesab edirik. Sorğudan da göründüyü kimi, Azərbaycanda hazırlanan dönərlərin 80 faizi standartlara cavab vermir və mənşəyi məlum olmayan ətlərdən hazırlanır. Aidiyyəti qurumlar bu sahəyə nəzarəti daha da gücləndirməlidirlər".

*Günel CƏLİLOVA*

# "Bir də görürsən beş-üç şou müğənnisi müxtəlif verilişlərin canlı yayımında pul dilənir"

**Bütün neqativ hərəkətlər, cəmiyyət üçün ziyanlı olan hallar şou müğənnilərindən çıxır. Bir-birini müxtəlif yollarla gözdən salmağa çalışan, boş yerə qalmaqallar yaradan, hətta qarşılıqlı olaraq şantaja əl atmaqdan belə çəkinməyən şou müğənniləri son zamanlar daha bir qalmaqallı məsələ ilə gündəmə gəliblər.**

*Xəyalə Rais: "Hətta onlar toylarda da bu vasitələrdən istifadə edirlər"*



Onlara yaradılan canlı efir imkanlarından istifadə edərək müxtəlif imkanlı şəxslərdən pul dilənməyə başlayıblar. Şou müğənnilərinin dilənçilik əməllərini həyata keçirməsi üçün bəzi şou verilişləri aparıcılarının da onlar üçün şərait yaratdığı gizlin deyil. Bir çox şou müğənniləri "xəstəlik" nömrəsindən istifadə edərək ianə toplayır, həmin ianə ilə özlərinin kredit borclarını bağlayır, özlərinə mal-mülk alırlar. Bunu onların özlərinin şou saytlarına verdikləri açıqlamalar da təsdiqləyir ki, bu adamlar həqiqətən də xəstə deyillər və onlar, sadəcə, bu üsuldan istifadə edirlər.

Şou müğənnilərinin onlara yaradılan efir imkanlarından öz şəxsi məqsədləri üçün istifadə etməsi adi hala çevrilib.

**Mədəniyyətşünas Xəyalə Rais bizimlə söhbətində bildirdi ki, şou müğənniləri həm teleproqramlarda, həm də sosial şəbəkələrdə yayımladıqları videolarda öz şəxsi maraqlarını dilə gətirirlər.** O qeyd etdi ki, hətta bəzi şou müğənniləri məmurların və iş adamlarının iştirak etdiyi toylarda belə ianə toplamaqla məşğul olurlar. "Şou müğənniləri öz şəxsi maraqlarını təmin etmək məqsədilə istənilən oyuna gedirlər. Yalnız bizim ölkədə şou müğənniləri efirdən onlara yaradılan imkanlardan şəxsi məqsədlər üçün istifadə edirlər. Bu yaxınlarda şou-biznesdə olan insanlardan biri bəzi aparıcıların dəstəyilə "ağır xəstəliyə düçar olduğunu" bəyan etdi və onun xəstə olduğuna inanan insanlar ona külli miqdarda pul verdilər. O isə pul yığılandan sonra elan etdi ki, xəstə deyiləm, sadəcə, banka borcum vardı, ona görə bu yola əl atdım. Yaxud başqa bir şou-biznesçi efirdən özünə sponsor axtarır. Deyir ki, pulum olsaydı, yeni mahnılar yazdırardım, kaş bir nəfər sponsor olaydı. Bir də görürsən beş-üç şou müğənnisi müxtəlif verilişlərin canlı yayımında pul dilənir. Düzdür, onlara kömək edənlər olur, hətta maşın, ev, bahalı hədiyyələr alanlar da tapılır. Bəzi şou-biznesçilər bu əməlləri ilə mədəni dilənçiliklə məşğul olurlar. Hətta onlar toylarda da bu vasitələrdən istifadə edirlər. Görürlər ki, toyda imkanlı adamlar, məmurlar iştirak edir, orada da pul dilənirlər" - deyə X.Rais bildirdi.

O qeyd etdi ki, şou müğənnilərinin öz maraqlarını təmin etmək üçün istifadə etdikləri metodlar onları gözdən salmağa xidmət edir. Onun sözlərinə görə, "Facebook", "İnstagram" və digər sosial şəbəkələrdə bəzi şou müğənniləri bu yolu tutublar, onlar canlı yayım yaradaraq pullu insanlara səslənirlər ki, bizə imkan dərəcəsində dəstək olun. "Hətta elə hallar olur ki, onlar yalandan "uşaq və qocalar evinə yardım toplayırıq, siz də bizə dəstək olun" deyirlər. Şou müğənnilərinin bu əməlləri ciddi şəkildə qınanmalıdır" - deyə müsahibimiz bildirdi.

*Aytəkin KƏRİMLİ*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanlı uşaq və gənclərin inkişafına aparan yol

**Ölkədə vətənpərvərlik ruhunun formalaşdırılması, dövlət üçün istedadlı kadrların yetişdirilməsi, Azərbaycanı ölkə xaricində layiqincə təmsil etmək kimi amillər, heç şübhəsiz ki, təməl prinsiplərə söykənməlidir. Bunun üçün dövlətin uşaq və gənclərdən başlayan bazası formalaşmalıdır. Daha da dəqiqləşdirməli olsaq, uşaq və gənclərin bu kimi tələblərə cavab verməsi üçün onların müxtəlif sahələr üzrə inkişaf etdirilməsi lazımdır.**

Respublikamızda uşaq və gənclərin inkişafı bu baxımdan əsas prioritet məsələlərdən biridir. Bu məsələdə əsas yük Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin üzərinə düşür.

**Mənəvi inkişaf**

Mərhum ölkə başçımız Heydər Əliyev demişdir: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər hec vaxt vətəninə, xalqına ögey munasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi, keçmişimizi, dilimizi, milli dəyərlərimizi yaxşı bilməlidir".

Məhz şəxsiyyətin formalaşması prosesi bütün bu keyfiyyətlərə malik olmaqdan keçir. Vətənini sevməyən insanın mənəviyyatından da danışmaq artıq olar. Bütün bu amillər bir-birini mütləq şəkildə tamamlamalıdır.

Azərbaycanda digər sahələrdə olduğu kimi, uşaq və gənclərin mənəvi cəhətdən inkişaf etdirilməsində də islahatlar aparılır. Buna bariz nümunə kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 noyabr 2016-cı il tarixli, 431 nömrəli qərarını göstərmək olar.

Sözügedən qərara görə, Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik, Respublika Gənc Turistlər və Diyarşünaslıq mərkəzləri və Tofiq İsmayılov adına Bakı Şəhər Uşaq-Gənclər Yaradıcılıq Sarayının bazasında Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi yaradıldı.

Həmin mərkəzin yaradılması yaradıcılıq profilli məktəbdənkənar təhsil müəssisələrinin vahid idarəetmə mexanizminin qurulması, mövcud ştat vahidləri və dərs yükü çərçivəsində onların maddi-texniki baza ilə təminatının təkmilləşdirilməsi məqsədi daşıyır.

Mərkəzdə uşaq və gənclərin asudə vaxtlarının müxtəlif profilli istiqamətlər üzrə səmərəli təşkili və onların hərtərəfli inkişafı üçün müasir dövrün tələblərinə cavab verən məkanların yaradılması nəzərdə tutulub. Geniş profilli müəssisə yaratmaqla, elm, texnologiya, ekologiya və yaradıcılığın bütün sahələrini əks etdirən, müasir gəncliyin tələbatına uyğun dərnək və qrupların, klub və s. birliklərin təşkili, müxtəlif müsabiqə, sərgi, bayram tədbirlərinin, həmçinin, elmi-laborator təcrübələri keçirilir.

Bu mərkəz gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların estetik dünyagörüşünün milli köklər üzərində formalaşmasına da müsbət təsir göstərir. Bura gənclərimizin intellektual potensialının inkişafını da aid etmək olar.

**Fiziki inkişaf**

Yuxarıda uşaq və gənclərin mənəvi inkişafından bəhs etdik. Bəs fiziki inkişaf məqsədilə hansı imkanlar bizim gələcəyimizin tumurcuqları üçün var? Bunun üçün Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbləri (UGİM) fəaliyyət göstərir.

BŞGİBİ rəisi Raqif Abbasov ölkədə yeniyetmə və gənclərin idmanla məşğul olmasının kütləvi hal aldığını bildirib: "Bakı Şəhər Gənclər və İdman İdarəsi iki istiqamət üzrə fəaliyyət göstərir: kütləvi bədən tərbiyəsi və idman. 56 Olimpiya və qeyri-olimpiya idman növü üzrə üç yaş qrupunda yeniyetmə, gənclər və böyüklər arasında paytaxt birincilikləri, turnirlər, kuboklar və beynəlxalq yarışlar keçiririk. Digər istiqamət isə həvəskarlar arasında kütləvi idmanın təbliğatı məqsədilə baş tutur. Bunu biz ayrı-ayrı dövlət və özəl qurumlarla müştərək olaraq spartakiada qismində keçiririk. Spartakiadalar daha çox kompleks idman növlərinə aiddir. Hansı ki, orada o qədər də peşəkar idman biliklərinə sahib olmaq lazım deyil.

Orta ümumtəhsil məktəbləri və ali təhsil ocaqları arasında müxtəlif normativlərə uyğun olaraq kütləvi tədbirləri təşkil edirik. Birmənalı olaraq qeyd edə bilərəm ki, sağlam həyat tərzi ilə məşğul olmaq uşaq və gənclər arasında artıq dəb halına düşüb".

BŞGİBİ-nin keçirdiyi yarışların hansı yaş kateqoriyalı yeniyetmə və gənclər arasında keçirilməsi də maraqlıdır. Sözügedən qurumun rəhbəri buna belə aydınlıq gətirir: "Son vaxtlar Bakıda "Abad Məhəllə"lərin açılışı olur. Orada 7-9-11-ci sinif şagirdləri arasında həm stolüstü idman, həm də kütləvi idman növləri keçirilir. İdman növlərini seçəndə zədə almaq ehtimallarının olması nəzərə alınır. Məsələn, stolüstü idman növlərində zədə almaq ehtimalı, demək olar ki, olmadığından, burda nisbətən yaşlı gənclərin müraciəti daha çox olur. Ümumiyyətlə, şahmat, dama, mini futbol, voleybol, üzgüçülük, estafet və atletikanın ayrı-ayrı istiqamətlərinə daha çox tələbat var. Məsələn, böyük tennislə müqayisədə voleybola daha çox maraq göstərilir. Təbii ki, bu daha çox ölkədə bu idman növlərinin bazasının olub-olması ilə də əlaqədardır".

Bakıda iyulun 21-də Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. Bu mötəbər turnir idmanla məşğul olmaq istəyən yeniyetmə və gənclərin daha da diqqətini cəlb edəcək.

"Hər bir dövlət istəyir ki, onun tək böyüklər arasında yox, gənclər arasında da nəticələri yaxşı olsun. Avropa Olimpiya Gənclər Festivalının mahiyyəti həm də ondan ibarətdir ki, ehtiyat qüvvə sınaqdan keçiriləcək.

Yeniyetmə və gənclər arasında nəticə qazanmaq böyüklərə nisbətdə daha asandır. Çünki burda idmançıların peşəkarlıq səviyyəsi o qədər də çox olmur. Əminliklə demək olar ki, yeniyetmə və gənclər arasında keçirilən yarışlarda nəticə qazanmış idmançılarda böyük yaş qrupunda medala yiyələnmək eşqi daha çox olur", - deyə Raqif Abbasov bildirir.



**Ölkədə fiziki inkişaf üçün yaradılmış perspektivlər**

Azərbaycanlı uşaq və gənclərin fiziki inkişafı üçün ölkəmizdə yetərincə imkanlar var. Hazırda respublikamızın şəhər və rayonlarında 45 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir.

Ötən il Lənkəran şəhərində yeni Olimpiya İdman Kompleksi istifadəyə verildi. Neftçala, Tərtər, Goranboyda olimpiya idman komplekslərinin və Yardımlı, eləcə də Bakının Qala qəsəbəsində idman komplekslərı tikintisi isə davam etdirilir.

Bu ilin fevralın 13-də isə ölkə başçısı İlham Əliyev şəxsən özü Milli Olimpiya Komitəsinin rəhbəri olaraq Goranboy Olimpiya İdman Kompleksinin açılışını etdi.

Həmçinin, Yevlax Olimpiya İdman Kompleksinin layihələndirilməsi başa çatdırılıb. Günəşli qəsəbəsində yeni şahmat məktəbi, Buzovnada isə idman zalı tikilib istifadəyə verilib. Səkkiz idman zalının tikintisi isə davam etdirilmək üzrədir. Sadaladığımız bu infrastrukturlar ölkənin gənclərinin idmanla məşğul olması üçün çoz gözəl imkanlar yaradır.

Bundan başqa, fərdi şəkildə idman klubları və ya idman zalları açıb sahibkarlıqla məşğul olan insanlar var. Bunların arasında Azərbaycanın məşhur idmançılarının adlarına da rast gəlmək olar. Məsələn, Zabit Səmədov, Rəsul Çunayev, Eduard Məmmədov kimi idmançıları bu sırada sadalamaq mümkündür.

Elə idmançılar var ki, qazandıqları maliyyə vəsaitini əyləncəyə xərcləyirsə, adlarını çəkdiyimiz insanlar özləri kimi perspektivli idmançıların yetişməsi üçün kapitalını bu sahəyə ayırır.

Yuxarıda qeyd etmişdik ki, ölkəmizdə ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbləri fəaliyyət göstərir. Bu məktəblərin daxilində azərbaycanlı gənclər idmanın sirlərinə yiyələnir, fiziki imkanlarını yaxşılaşdırmaq imkanı əldə edirlər.

Onu da qeyd edək ki, ölkəmiz mütəmadi olaraq yeniyetmələrin Yay Olimpiya Oyunlarında iştirak edir. Ötən il idmançılarımız bu olimpiadada iştirak etmək üçün 17 lisenziya qazanmışdı. Argentinanın paytaxtı Buenos Ayresdə keçirilmiş olimpiadada üç qızıl, bir gümüş və üç bürünc medal olmaqla ümumilikdə yeddi medal qazandıq. Cüdoda, güləşdə yeniyetmə yaşlarında qazanılan bu nəticələr digər idmançı olmaq xəyalı quran azyaşlı vətəndaşlarımıza motivasiya verir, onların hər il idmanla məşğul olmaq həvəslərini artırır.

Bu amillər ailə başçılarına da təsir edir. Onlar öz övladlarını idmançı kimi görmək istəyir, özləri uşaqlarını idman məktəblərinə, klublarına yazdırır. Çoxlu sayda ölkədə aşağı yaş qrupları üzrə futbol komandaları fəaliyyət göstərir. Minlərlə uşaq bu məktəblərdə futbolun sirlərinə yiyələnir, peşəkarlığa gedən yolun ilk addımlarını atır.

Sonda onu da qeyd edək ki, ölkə gənclərinin hərtərəfli inkişafını təmin etmək məqsədilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" dövlət başçısı İlham Əliyev tərəfindən təsdiq olunub.

İlk dəfə olaraq, strategiyada Azərbaycan gəncliyinin müxtəlif sosial qrupları müəyyənləşdirilib. Sənədin əsas məqsədi bu dövr ərzində Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeyi naminə istifadə etmək və yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır. Əminliklə demək olar ki, ölkəmiz hazırda bu strategiyanı uğurla davam etdirir.

***Səbuhi MUSAYEV***

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.**

№ 50 (3948) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

15 MART 2019-cu il

www.baki-xeber.com

## Uşaqlar üçün təhlükəsiz internet...

*"Azercell" Vİ Regional İnternet İdarəçilik Forumunda iştirak edib*

**Ölkəmizdə kibertəhlükəsizlik sahəsində səmərəliliyin və maarifləndirmə səviyyəsinin artırılması və texniki hazırlığın yüksəldilməsi məqsədilə 11-15 mart tarixlərində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "Kibertəhlükəsizlik həftəsi" keçirilir. "Azercell Telekom" MMC-nin də fəal iştirak etdiyi "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində fərqli qurumların dəstəyilə müxtəlif forum və tədbirlər, müsabiqələr təşkil olunur.**




Mart ayının 13-ü Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən BMT-nin İnkişaf Proqramı ilə birgə "Kibertəhlükəsizlik: bizim ortaq məsuliyyətimiz" mövzusunda VI Regional İnternet İdarəçilik Forumu (RİİF) keçirilib. Forum region ölkələri və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirib. Tədbirdə "Regionun kibertəhlükəsizlik məsələləri", "Kibertəhlükəsizliyin innovativ həlləri", "Uşaqlar üçün təhlükəsiz internet" kimi mövzularda sessiyalar təşkil olunub. Hökumət, biznes və diplomatik korpusların səlahiyyətli nümayəndələri, elmi dairələrin və vətəndaş cəmiyyətinin, eləcə də internet ictimaiyyətinin mütəxəssislərinin çıxış etdiyi forumda "Azercell Telekom" MMC-nin Korporativ Ünsiyyət Departamentinin rəhbəri Nigar Şıxlinskaya "Uşaqlar üçün təhlükəsiz internet" mövzusunda şirkətin həyata keçirdiyi layihələr barədə danışıb. Nigar Şıxlinskaya çıxışı zamanı ölkənin lider mobil operatoru olan "Azercell" şirkətinin kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə məsələlərinə həm texniki, həm də Korporativ Sosial Məsuliyyət siyasəti baxımından böyük diqqət ayırdığını bildirib.

Məlumat üçün bidilrək ki, "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində "Azercell" tərəfindən uşaqlar, valideynlər və müəllimlər üçün internetdən təhlükəsiz istifadə mövzusunda təlimlər təşkil edilir. Artıq mart ayının 4-dən 7-nə kimi Şəmkirdə "Azercell"in dəstəyilə "Azərbaycan Müəllim İnkişafı Mərkəzi" tərəfindən "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlim keçirilib.

Daha bir təlim isə martın 11-də Gəncə şəhərində başlayıb. Martın 15-nə qədər davam edəcək təlimdə böyüklərlə yanaşı, uşaqların da həyatının ayrılmaz hissəsinə çevrilən internetdə rastlanan təhlükələr barədə məlumat verilir. Burada məktəblilərə kibertəhlükəsizlik anlayışı aşılanır, internetdən gələn təhlükənin dərəcəsi, səbəbləri araşdırılır. Uşaqlar təhlükəsiz portallarla tanış edilir, onlara təhlükəsiz axtarış saytlarından istifadə qaydaları öyrədilir.

Qeyd edək ki, VI Regional İnternet İdarəçilik Forumunun (RİİF) əsas məqsədi daha səmərəli, effektli regional iqtisadi inkişafa və mədəni irəliləyişə nail olmaq üçün internet tətbiqinin müxtəlif yollarını nümayiş etdirməkdir. Forum yerli iştirakçıların beynəlxalq mütəxəssislərlə təcrübə mübadiləsi və əməkdaşlıq qurması, bu sahədə mövcud vəziyyətin, qarşıya qoyulmuş vəzifələrin, müvafiq xarici strukturlara inteqrasiya məsələlərinin birgə müzakirəsi və maraqlı innovativ layihələrin nümayişi üçün ideal platformadır.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar"dan gənclərə karyera fürsəti...

**"Nar" tələbələrin öz ixtisasları üzrə uğurlu karyera qurmalarına kömək etmək məqsədilə gənclərə dəstək olmaqda davam edir.**

Mobil operator "ASAN kadr" karyera mərkəzi və Bakı Ali Neft Məktəbinin təşkil etdiyi 2-ci Karyera sərgisində iştirak edib. "Nar" satış, marketinq, müştəri dəyərinin idarə edilməsi, biznesin təhlili üzrə vakant vəzifələrinə sənəd qəbulu təşkil edib. Bundan başqa, mobil operator universitetin tələbə və məzunlarına uğurlu karyera barədə məsləhətlər verib. Şirkət təmsilçiləri ilə birbaşa ünsiyyətdə olan tələbələr karyera imkanlarını dəyərləndirmək, həmçinin, bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar. Sərgidə "Nar" stendinə maraq böyük olub. Qeyd edək ki, sərgidə 80-dən artıq şirkət iştirak edib.

Sərginin keçirilməsinin əsas məqsədi gənclərin məşğulluğunun artırılması, iş təcrübəsi olmayan gənclər üçün karyera fürsəti yaratmaq, məşğulluq bacarıqlarını inkişaf etdirməklə onların iş imkanlarını genişləndirməkdir.

Qeyd edək ki, gənclərə dəstək "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. "Nar"ın davamlı olaraq həyata keçirdiyi KSM layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

## Yenilənmiş "CavanNar"a qoşul, ikiqat internet əldə et!

**Ölkənin ən gənc və innovativ mobil operatoru olan "Nar"yenilənmiş "CavanNar" tarifini təqdim edir. Artıq bundan sonra "CavanNar" ilə abunəçilər daha çox internetdən istifadə edə və daha çox ünsiyyət qura biləcək.**

Yenilənmiş "CavanNar" 2 müxtəlif paketdə təqdim olunur. Belə ki, "CavanNar 9"a qoşulmaq istəyənlər aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə əldə edəcəklər. "CavanNar 6" isə istifadəçilərə aylıq 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. "CavanNar" tarifinə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər. Qeyd edək ki, "CavanNar" Azərbaycan mobil rabitə bazarında ən sərfəli internet paketi sayılır.

"CavanNar 9"a qoşulmaq üçün "C9" yazıb 777-yə göndərmək və ya 777#9#YES yığmaq lazımdır. "CavanNar 6"ya qoşulmaq üçün isə "C6" yazıb 777-yə göndərmək və ya 777#6#YES yığmaq kifayətdir. İstənilən tarifdən "CavanNar" tarifinə keçmək 1 AZN təşkil edir. Bir "CavanNar" tarifindən digərinə keçid isə pulsuzdur.

Qeyd edək ki, "CavanNar" tarifinə qoşulan abunəçilər hazırda ölkədə ən geniş şəbəkələrdən birinə malik olan "Nar"ın 4G şəbəkəsindən istifadə etməklə tam keyfiyyətdə yararlana bilərlər. Bakı və Abşeron yarımadası ilə yanaşı, 47 bölgə "Nar"ın 4G şəbəkəsi ilə təmin edilib.

"CavanNar" tarifi haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

### Elan

Bakı şəhəri, M.X.Şərifli küçəsi 78, mənzil 48 ünvanı üzrə Vlasova Nadejda Vladimirovnanın adına verilmiş Dövlət Reyestrindən çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Günün ilk yarısında bütün işləri əvvəlcədən planlaşdırmağa çalışmayın. İntuitiv hərəkət etsəniz, ciddi reqlamentdən çıxaraq daha böyük və əhəmiyyətli uğurlara nail ola bilərsiniz.



**Buğa** - Rəqibləri geridə qoyaraq irəliləmək şansları var. Şəxsi münasibətlərdə də yeniliklər zamanıdır. Maliyyə əməliyyatları, alış-veriş, yaradıcılıq üçün münasib zamandır.



**Əkizlər** - Ən müxtəlif işlərin yerinə yetirilməsi üçün münasib zamandır. Özünüzdən bədgüman olmayın. Qüvvə və potensialınıza şübhəniz olmasın. İndiyədək reallaşdırılmasını arzuladığınız məsələni gerçəkləşdirməyə başlayın.



**Xərçəng** - İşlərinizdə irəliləmək üçün rasional düşünün. Qərar qəbul edəndə ön planda olmayın. Perspektivlər sizi təmin edirsə, işə başlayın. Fərdi qərarlarla müqayisədə kollektiv müzakirələr daha yaxşıdır.



**Şir** - Yaxın ətrafınızdakı insanlarla ünsiyyətdə süni problemlər yaratmayın. Rabitə vasitələri və ya texnikanın işində problemlər yarana bilər. İşlərinizə qapılaraq ailə üzvlərinin xahişini qulaqardına vurmayın. Öhdəlikləri unutmayın.



**Qız** - Uzaqdan yaxşı məsləhət alacaqsınız. Təcrübənizi yaxın ətrafınızdakı insanlardan biri ilə paylaşa bilərsiniz. Müxtəlif ağırlıqda və səviyyədəki problemlərin həllində tələskənliyə yol verməyin.



**Tərəzi** - Ünsiyyət və fəaliyyət üçün daha geniş sahəyə ehtiyacınız var. Uğurlarınızla qürrələnməyin, təvazökar olun. İnformasiya ilə işləmək, müzakirələr, təcrübə mübadiləsi üçün yaxşı zamandır.



**Əqrəb** - Maliyyə məsələləri xüsusi aktuallıq kəsb edəcək. Sərmayələr, alış-veriş, bankdan kredit almaq üçün sərfəli zamandır. Danışıqlarda mövqelərinizi qorumağa çalışın. İntuisiyanızın səsinə qulaq asın. Risk etmək olar.



**Oxatan** - Şərtləri təhlil edin, situasiyadan istifadə edin. Sizə dəyər verən insanın maraqlarını qulaqardına vurmayın. Yaxşı tanıdığınız insanla əməkdaşlıq edin. Peşəkar fəaliyyətdə ciddi irəliləyiş istəyirsinizsə, aktiv olun.



**Oğlaq** - Seçim qarşısında qalacaqsınız. Aldığınız təklifləri tələsmədən dəyərləndirin. Zərurət yaranarsa, tələsin. Ətalət və tənbəllik zamanı deyil. Problemlərin həllinin sınanmış metodları işlək deyil.



**Dolça** - Günün ilk yarısında başladığınız işlərdə və təşəbbüslərdə uğur qazana bilərsiniz. Kollektiv fəaliyyətdə xeyir var. İşlərin qaydaya salınması, şəxsi münasibətlərin tənzimlənməsi üçün yaxşı zamandır.



**Balıqlar** - Əyləncə və istirahət fikirlərini təxirə salın. Planlaşdırdığınız bəzi tədbirləri və işləri təxirə salmalı olacaqsınız. Səbrli və təmkinli olsanız, situasiya sizi qıcıqlandırmayacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Bakcell"dən gənclərin məşğulluğunun artırılmasına növbəti töhfə

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti "ASAN Kadr" Karyera mərkəzinin 2-ci Karyera sərgisində iştirak edib.**

Bakı Ali Neft Məktəbində keçirilmiş sərgidə, ümumilikdə, 80-dən çox müəssisə təmsil olunub. Karyera sərgisinin əsas məqsədi ASAN könüllüsü olmuş, o cümlədən savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin məşğulluq imkanlarını artırmaq, vətəndaşların işlə təmin olunmalarına dəstək göstərmək, habelə müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat vermələri üçün şərait yaratmaqdır. Sərgi zamanı gənclərə "Bakcell" şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib. Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan "Bakcell" şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına mütəmadi olaraq dəstək göstərir. Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, müvafiq dövlət strukturları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük və ən innovativ şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanırlar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.